**KORRUPSİYA, NARKOTİK İSTEHSALI, TALAMA**

# USAID BATAQLIĞI QURUDULUR



Tramp administrasiyası ABŞ Beynəlxalq İnkişaf Agentliyinin proqramlarının əhəmiyyətli hissəsinin ölkənin maraqlarına cavab vermədiyi qənaətinə gəlib. Məlum olub ki, təşkilat öz ilkin təyinatından kənara çıxıb.

Agentlik korrupsiyada, yəni ehtiyacı olan ölkələrə və icmalara yardım proqramına yönəldilməli olan vəsaitlərin oğurlanmasında ittiham olunur. Milyarder Den Pena bildirib ki, kasıb ölkələrə vəd edilən pullardan onlara heç nə çatmır.

SƏHİFƏ 4-də

‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

ÜÇ ƏSRİN QƏZETİ

Kaspi

8 FEVRAL ŞƏNBƏ 2025 № 05 (4206) Qiyməti - 60 qəpik www.kaspi.az



## QARABAĞ UNİVERSİTETİNİN KLİNİKASI YARADILIR

Qarabağ Universitetinin Klinikası publik hüquqi şəxs yaradılır. Prezident İlham Əliyev bununla bağlı Fərman imzalayıb. Qarabağ Universitetinə Klinikanın saxlanılma xərclərinin maliyyələşdirilməsi üçün 5 milyon manat ayrılıb.



## SİZ DEYİN, KİMDİR MÜQƏSSİR?!

Həkimlərin məsuliyyətə cəlb olunması, həkim səhvləri, hətta onların həbs edilməsi ilə bağlı xəbərlər ölkə gündəmini zəbt edib. Sosial şəbəkələrdə həkimlərə qarşı kampaniya təşkil edənlər də var, onları müdafiə edənlər də.

SƏHİFƏ 8-də



## ELEKTROMOBİLLƏRDƏ ŞÜALANMA PROBLEMİ

Son vaxtlar populyarlaşan elektromobillərlə bağlı rəylər birmənalı deyil. Bəziləri onlardan istifadənin insan sağlamlığına mənfi təsir göstərdiyini iddia edir. Lakin bu iddialarla razılaşmayanlar da çoxdur.

SƏHİFƏ 14-də

**RUSİYA BEYNƏLXALQ HÜQUQU KOBUD ŞƏKİLDƏ POZUR**

# İLKİN HESABAT HƏR ŞEYİ DEYİR



AZAL-a məxsus təyyarənin Rusiya ərazisində vurulması və kənar müdaxilə nəticəsində Aktauda qəzaya uğramasına dair ilkin hesabat açıqlanıb. Hesabatda Rusiyanın məsuliyyətdən yayınmaq üçün irəli sürdüyü əsassız arqumentlər tamamilə ifşa edilir.

### KREMLİN KAMPANİYASI İFŞA OLUNUR

Hesabatda oksigen balonunun partlaması ilə bağlı faktı ehtiva edən hər hansı məlumat qeyd olunmayıb. Rusiya tərəfinin ortaya atdığı “quş dəstəsi ilə toqquşma”, “oksigen balonunun partlaması”, “Kovyor” əməliyyatı ilə bağlı fikirlər, Kremlin təlimatı ilə aparılan kampaniya ifşa olunur.

### RƏSMİ BAKININ MÖVQEYİ BİRMƏNALIDIR

İlk anlardan etibarən rəsmi Bakının mövqeyi birmənalıdır. Qarşı tərəf, yəni hadisənin baş verməsinə birbaşa məsuliyyət daşıyan Rusiya beynəlxalq hüquqa əsasən, üzərinə düşən öhdəlikləri yerinə yetirməlidir. Bu öhdəlikləri isə Azərbaycan ali rəhbərlik səviyyəsində bir neçə dəfə açıq şəkildə açıqlayıb.

SƏHİFƏ 3-də

**Bəs sizin alman dəqiqliyiniz harada qaldı?**

# PASPORTUMU VERİN!



Ümumvətəndaş pasportunun səfirlikdə itirildiyini iddia edən vətəndaşa cavab verən yoxdur. Səfirlik dəyən ziyanı ödəməkdən yayınır, ekspertlər bu sahədə ciddi problemlərin olduğu qənaətindədirlər.

“Azərbaycandakı Almaniya səfirliyi vizanı pasportuma vurduqdan sonra həmin sənədi itirib. Heç bir üzr istənilmədi, heç bir tələbimə cavab verilmədi. Tək təklif bu idi: yeni pasport alın gəlin, biz həmin vizanızı 24 saat ərzində vuracağıq...”

SƏHİFƏ 12-də



## TRAMP KOSMOSU DA FƏTH ETMƏK İSTƏYİR

ABŞ prezidenti müdafiə nazirinə “Dəmir qübbə” adlandırılacaq raketdən müdafiə sisteminin layihəsini təqdim etməyi tapşırıb. Bu layihənin minimum 300 milyard dollara başa gələcəyi proqnozlaşdırılır.

SƏHİFƏ 5-də




## DƏYİŞKƏN İŞ QRAFİKİ NƏYİ DƏYİŞƏCƏK?

Bakıda nəqliyyat axınını optimallaşdırmaq məqsədilə dövlət qurumları, təhsil və tibb müəssisələrinin iş rejimi dəyişkən qrafikə əsasən tənzimlənəcək. İş saatları ilə bərabər, istirahət günlərinin dəyişdirilməsi də real hesab edilir.

SƏHİFƏ 7-də



## ÖLKƏ FUTBOLUNDA YENİ DÖVR

AFFA İcraiyyə Komitəsinin başa çatmaqda olan həftədə keçirilən son iclasında qəbul edilən qərarlar konkret yanaşmalara əsaslanır. Legioner limiti ləğv olunur, Premyer Liqada komanda sayı artırılır.

SƏHİFƏ 16-da



**Bakıda “Rus Evi” müəmması**

SƏHİFƏ 2-də



**SOCAR “ağıllı” qaz sistemi tətbiq edəcək**

SƏHİFƏ 10-da



**Xərcləyirik, sonra ödəyə bilmirik**

SƏHİFƏ 11-də



**Balıqçılıqda yeni dönəm**

SƏHİFƏ 13-də



**Ölümü də qeyri-adi olan aktrisa**

SƏHİFƏ 15-də



# İlham Əliyev yeni nazir təyin etdi

Prezident İlham Əliyev Anar Rəhim oğlu Əliyevin Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb. Bununla bağlı President.az məlumat yayıb. Dövlət başçısının digər sərəncamı ilə, Anar Rəhim oğlu Əliyev Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri təyin edilib.



# Əli Əhmədovu Samir Şərifov əvəzlədi

Prezident İlham Əliyev "Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması haqqında" 6 oktyabr 2016-cı il tarixli fərmanında dəyişiklik edib. Bununla bağlı dövlət başçısı yeni fərman imzalayıb. Qərara əsasən, Şuraya sədrlik edən deputat Əli Əhmədovu Baş nazirin müavini Samir Şərifov əvəz edib.



# Ukrayna Azərbaycana minnətdardır

Ukrayna göstərilən müntəzəm yardıma görə Azərbaycana təşəkkürünü bildirir. "Report" xəbər verir ki, bu barədə Ukraynanın Azərbaycandakı səfiri Yuri Qusev özünün "X" sosial şəbəkəsindəki səhifəsində yazıb.

"Azərbaycan Ukraynaya növbəti humanitar yardım partiyası göndərib. Ukraynanın enerji infrastrukturunun bərpasına kömək etmək üçün Prezident İlham Əliyevin ayırdığı 1 milyon ABŞ dolları dəyərində kabel və elektrik avadanlığı partiyası artıq yoldadır. Daimi dəstəyə görə Azərbaycana minnətdarıq", - diplomat yazıb.

Qeyd edək ki, Azərbaycan 2022-ci ildən etibarən Ukraynaya 40 milyon dollardan çox məbləğdə humanitar yardım göstərib.

# "RUS EVİ" MÜƏMMASI




## Azərbaycan "Rus Evi"nin fəaliyyətinə xitam verilməsi barədə Rusiya tərəfinə nota göndərib. Səbəb kimi ölkə qanunvericiliyinin tələblərinin pozulması göstərilib.

FUAD ABASOĞLU

Azərbaycanda son zamanlar xarici kəşfiyyat orqanlarının destruktiv fəaliyyətinin qarşısının alınması istiqamətində ciddi tədbirlər görülür. Böyük rezonansa səbəb olan Fransaya məxsus casus şəbəkəsinin ifşasından sonra ABŞ-nin USAID təşkilatının da ölkəmizdə fəaliyyətinə xitam verildi. İndi isə növbədə Azərbaycanda fəaliyyət göstərən "Rus Evi"dir. Son günlər mərkəz ətrafında müzakirələr səngimir. Xüsusilə də Rusiya mətbuatında "Rus Evi"nin bağlanması barədə qərara görə, ölkəmiz yenidən hədəf halına gəlib. Lakin rəsmi Bakının bu məsələdəki mövqeyi aydındır. Hansı dövlətə məxsus olmasından asılı olmayaraq, ölkə qanunvericiliyinin tələblərini pozan mərkəzlərin fəaliyyətinə son veriləcək.

### RUSİYAYA NOTA VERİLDİ

Artıq Azərbaycan tərəfi məlum məsələ ilə bağlı Rusiyaya nota da verib. Xarici İşlər Nazirliyinin məlumatında bildirilir ki, "Rossotrudniçestvo"nun Azərbaycandakı nümayəndəliyi olan Rusiya İnformasiya-Mədəniyyət Mərkəzi - "Rus Evi"nin hüquqi şəxs qismində qeydiyyatının mövcud olmadığı və təşkilatın Azərbaycan qanunvericiliyini ciddi şəkildə pozduğu barədə Rusiya tərəfinə məlumat verildikdən sonra 2025-ci il fevralın 3-də "Rus Evi"nin fəaliyyətinə xitam verilməsi barədə Rusiya tərəfinə nota göndərilib.

"Azərbaycan ərazisində bu kimi təşkilatların fəaliyyəti milli qanunvericiliyə, ölkələr arasında qarşılıqlılıq prinsipinə və ikitərəfli əsasda əldə olunmuş razılıqların tələblərinə uyğun olaraq tənzimlənir. Azərbaycan tərəfinin ölkəmizdə "Rus Evi"nin fəaliyyətinə xitam verilməsi barədə qərarından irəli gələrək, Rusiya tərəfindən bu istiqamətdə müvafiq tədbirlər həyata keçirilməsi gözlənilir", - məlumatda vurğulanıb.



## Qarşı tərəfi təşvişə salan əsas məqam

Qarşı tərəfi təşvişə salan əsas məqam isə bir neçə gün əvvəl "Baku TV"də "Rus Evi"nin casus şəbəkəsi olduğunu isbat edən faktların ortaya qoyulmasıdır. Materialda vurğulanıb ki, "Rossotrudniçestvo" adlanan qurumun tabeliyində olan "Rus Ev"ləri ölkəsinin müxtəlif kəşfiyyat orqanlarından aldıqları əmr və tapşırıqlar əsasında fəaliyyət göstərir, bir növ casusluqla məşğul olurlar. Ortaya qoyulan faktlarla bağlı hüquqi müstəvidə tədbirlər görülməsi bu "evlər"ə nəzarət edən "Rossotrudniçestvo"nun rəhbəri Yevgeni Primakovdan istənilib. 90-a yaxın ölkədə fəaliyyət göstərən təşkilat məhz casusluğa görə altı ölkədə fəaliyyətini dayandırmalı olub. Avropanın beş ölkəsində Rus mədəniyyət və elm mərkəzləri - "Rus Evləri" bağlanıb. Bunlar Sloveniya, Xorvatiya, Makedoniya, Monteneqro və Ruminiyadır. "Rossotrudniçestvo"nun casusluğunun sübut olunduğu ölkələr sırasında Almaniya da var. Bu, xüsusilə də Rusiyanın Ukraynaya qarşı tammiqyaslı hərbi müdaxiləsinin başlanğıcından bəri daha da güclənib. Yayılan məlumatlara görə, Almaniya hökuməti Berlindəki "Rus Evi"ni bağlamağa hazırlaşır. Bəzi məlumatlara görə, bu mərkəzin nümayəndələrindən biri "Vaqner" hərbiləşdirilmiş dəstəsinin üzvüdür.

### "BUNUN NİZAMLANA BİLƏN ANLAŞILMAZLIQ OLDUĞUNU HESAB EDİRİK"

Yeri gəlmişkən, Rusiya da rəsmi səviyyədə "Rus Evi" ilə bağlı məsələyə münasibət bildirib. "Kreml Bakıda "Rus Evi"nin bağlanmasını anlaşılmazlıq hesab edir", - bunu jurnalistlərə açıqlamasında Kremlin rəsmi sözçüsü Dmitri Peskov deyib. Onun sözlərinə görə, Kreml vəziyyətin nizamlanacağına ümid edir: "Təəssüflənirik və bunun nizamlana bilən anlaşılmazlıq olduğunu hesab edirik. Bu məsələni həmkarlarımızla müxtəlif səviyyələrdə müzakirə edəcəyik və bu məsələnin dövlət başçıları səviyyəsində qaldırılacağını istisna etmirik".

Peskov vurğulayıb ki, Moskva bu məsələləri Bakı ilə olan ənənəvi mehriban münasibətləri rəhbər tutaraq dialoq vasitəsilə həll edəcək.

# İLKİN HESABAT HƏR ŞEYİ DEYİR



AZAL-a məxsus təyyarənin Rusiya ərazisində vurulması və kənar müdaxilə nəticəsində Aktauda qəzaya uğramasına dair ilkin hesabat açıqlanıb. Hesabatda Rusiyanın məsuliyyətdən yayınmaq üçün irəli sürdüyü əsassız arqumentlər tamamilə ifşa edilir.



AQŞİN KƏRİMOV

"Azərbaycan Hava Yolları"na (AZAL) məxsus təyyarənin ötən il dekabrın 25-də qəzaya uğraması ilə bağlı Qazaxıstan Nəqliyyat Nazirliyinin ilkin hesabatı diqqət çəkir. Hesabat 53 səhifədən ibarətdir. Sənəddə təyyarənin hidravlik sistem bölməsindən, stabilizator idarəetmə mexanizmindən və digər hissələrindən çıxarılan kənar metal obyektlərin, habelə təyyarənin zədələnmiş hissələrinin fotoları və bort qeydedicisinin yazıları da yer alıb.

Hesabata əsasən, hava gəmisinin füzelyajında çoxsaylı kor zədələrin olması faktı aşkar olunub, foto, habelə video qeydiyyata alınıb. Həmin zədələr hava gəmisinin füzelyajının arxa hissəsində, xüsusilə şaquli və üfüqi stabilizatorlarında, habelə sol qanadda və sol mühərrikdə aşkar olunub.

İlkin hesabatda hava gəmisinin quşlarla toqquşmasına işarə edən hər hansı fakt barəsində məlumat təqdim edilməyib.

Hesabatda oksigen balonunun partlaması ilə bağlı faktı ehtiva edən hər hansı bir məlumat da qeyd olunmayıb. İlkin hesabatdan aydın görünür ki, Rusiya tərəfinin ortaya atdığı "quş dəstəsi ilə toqquşma", "oksigen balonunun partlaması", "Kovyor" əməliyyatı ilə bağlı fikirlər, Kremlin təlimatı ilə aparılan kampaniya ifşa olunur.

### RƏSMİ BAKININ QƏTİYYƏTİ

Hadisənin baş verdiyi ilk anlardan etibarən rəsmi Bakının mövqeyi birmənalıdır. Qarşı tərəf, yəni hadisənin baş verməsinə birbaşa məsuliyyət daşıyan Rusiya beynəlxalq hüquqa əsasən, üzərinə düşən öhdəlikləri yerinə yetirməlidir. Bu öhdəlikləri isə Azərbaycan ali rəhbərlik səviyyəsində bir neçə dəfə açıq şəkildə açıqlayıb. Bunlar hadisəyə görə üzr istənilməsi, qəzaya görə məsuliyyətin etiraf olunması, günahkarların cəzalandırılması və kompensasiyanın ödənilməsidir.



Prezident İlham Əliyev AZAL-ın təyyarəsi qəzaya uğrayandan dərhal sonra Bakıya geri qayıdaraq keçirdiyi müşavirədə qəzanın səbəblərindən danışarkən "müxtəlif versiyalar var" deməklə əslində Kremlin hadisəyə düzgün qiymət verməsi üçün zəmin yaratmışdı. Ancaq Rusiya mediası, rəsmi şəxsləri Azərbaycana qarşı təbliğat aparatını işə saldılar.

Rusiya fakt qarşısında qalanda isə Çeçenistan Respublikasını Azərbaycanın hadisəyə görə tərəf müqabili kimi ortaya atdı, amma bu da nəticə vermədi. Çünki hadisəyə görə Azərbaycanın danışacağı tərəf Rusiyanın ərazi subyekti deyil, birbaşa Kremlin özü olmalı idi. Prezident İlham Əliyev dekabrın 29-da verdiyi müsahibədə Rusiyanın məsuliyyətini vurğuladı. Bu müsahibə Rusiya Prezidenti Vladimir Putinin İlham Əliyevdən hadisənin Rusiya hava məkanında baş verməsinə görə üzr istəməsi, lakin məsuliyyəti etiraf etməməsindən sonra baş tutdu. 2025-ci ilin yanvarın 6-da isə Prezident İlham Əliyev həlak olan ekipaj heyətinin ailə üzvləri və sağ qalan təyyarə bələdçiləri ilə görüşdə bildirmişdi ki, Rusiyanın dövlət qurumları tərəfindən hadisəni ört-basdır etmək və cəfəng versiyalar üzərində dayanmaq Azərbaycanda həm təəccüb, həm təəssüf, həm də haqlı olaraq hiddət hissi doğurur. Rəsmi Bakı Rusiyanın qəza ilə bağlı məsuliyyətini xatırladaraq, Kremlin bu məsələdə obyektiv şəkildə daha ciddi yanaşmalarını görmək istədiyini vurğulayır.

## RUSİYA BEYNƏLXALQ HÜQUQU KOBUD ŞƏKİLDƏ POZUR

Açıqlanan ilkin hesabat bir daha Bakının arqumentlərini və mülahizələrini tam şəkildə dəstəkləyir. Azərbaycan tərəfinə atəşin hava hücumundan müdafiə sistemindən açıldığı məlumdur. Azərbaycan hökumətindəki mənbə fevralın 4-də "Reuters" agentliyinə bildirib ki, təyyarə Rusiyanın "Pantsir-S" hava hücumundan müdafiə sistemi ilə vurulub.

Hesabatı açıqlayan ekspertlər də qeyd ediblər ki, təyyarədəki dəlik zədələri xarici obyektlərin hava gəmisinin konstruksiyasına daxil olmasını göstərir. Bu, Azərbaycanın mövqeyinin dolayı yolla da olsa təsdiqidir.

Bununla belə, Rusiya tərəfinin israrla ilkin hesabatda qeyd olunan faktları nəzərə almaması, yaxud almaq istəməməsi beynəlxalq hüququn açıq şəkildə pozulması anlamına gəlir.

## KREML HADİSƏNİN UNUDULMASINA ÇALIŞIR




Xatırladaq ki, həm yerli, həm də beynəlxalq aviasiya, eləcə də onların təhlükəsizliyi aviasiya sahəsindəki beynəlxalq qanun-vericiliklərlə tənzimlənir. Qaydalar dövlətlər, hava yolları şirkətləri və sərnişinlər arasındakı münasibətləri tənzimləyir və məcburidir. Öhdəliklər "Mülki Aviasiya haqqında" 1944-cü il Çikaqo Konvensiyası və "Beynəlxalq Hava daşımaları üçün müəyyən qaydaların unifikasiyası haqqında" 1999-cu il Monreal Konvensiyalarının tələbləri ilə yaranır.

Çikaqo Konvensiyasına əsasən, razılığa gələn hər bir dövlət uçuş zamanı mülki hava gəmilərinə qarşı silahdan istifadə etməkdən çəkinməlidir. Bu müddəa BMT-nin Nizamnaməsində təsbit olunmuş dövlətlərin hüquq və öhdəliklərini dəyişdirməklə şərh oluna bilməz.

İlkin hesabat Rusiyanın bu öhdəlikləri açıq şəkildə pozduğunu göstərir. Lakin Moskva ilkin yox, yekun hesabatın "əsas olduğunu" vurğulayaraq, sanki vaxt qazanmağa, məsələnin tədricən unudulmasına nail olmağa səy göstərir.

Lakin Bakı mövqeyində qətidir. Tələbləri yerinə yetirilməsə digər vasitələrə əl atılacaq. Məqsəd Rusiyanın hadisəyə görə kompensasiya ödəməsi və üzr istəməsinə nail olmaqdır. Rusiya bu sübutlar toplusundan yayınıb Azərbaycana qarşı təbliğatını davam etdirdiyi təqdirdə isə Bakı kompensasiya tələbini beynəlxalq müstəvidə gündəmə gətirəcək. Bununla da, Azərbaycan öz haqlı tələblərinə uyğun olaraq, Rusiyaya qarşı zəruri beynəlxalq hüquqi müddəaların işlək olmasına çalışacaq. Əslində məsələnin hüquqi və ədalətli müstəvi çərçivəsində həllinin yubadılması mövcud beynəlxalq konyunkturada elə Rusiyanın özünə ciddi şəkildə zərər verir. Çünki getdikcə dostlarını və müttəfiqlərini itirən Bakı yox, Moskvadır.




# USAID BATAQLIĞI QURUDULUR

**Tramp administrasiyası ABŞ Beynəlxalq İnkişaf Agentliyinin proqramlarının əhəmiyyətli hissəsinin ölkənin maraqlarına cavab vermədiyi qənaətinə gəlib. Məlum olub ki, təşkilat öz ilkin təyinatından kənara çıxıb.**



**AZAD ƏLİYEV**
azad.eliyev@kaspi.az

Donald Tramp Ağ evə qayıdışından sonra verdiyi qərarlarla gündəm yaratmaqda davam edir. Onun xarici ölkələrə yardımların 90 gün müddətinə dondurulması barədə sərəncamının ardınca, ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID) ilə bağlı sərgilədiyi mövqe ciddi rezonans doğurub. Belə ki, təşkilat vasitəsi ilə ayrılan yardımlarla bağlı yoxlamalar aparılacaq. Tramp USAID rəhbərliyində ifrat radikalların olduğunu bildirib.

### "BU, SADƏCƏ QURD TOPASIDIR"

Ağ ev rəhbərinin məlum tutumunun konturlarını Dövlət İdarəetməsinin Səmərəliliyi Departamentini idarə edən İlon Maskın son açıqlamalarında görə bilərik. "Bu, qurdlu alma deyil, sadəcə qurd topasıdır... Alma yoxdur, ona görə də hər şeydən xilas olmaq lazımdır",- deyə o bildirib.

Mask təşkilatı bioloji silahların hazırlanmasını maliyyələşdirməkdə də ittiham edib. "Bilirsinizmi ki, USAID sizin vergi pullarınızdan istifadə edərək milyonlarla insanı öldürən COVID-19 da daxil olmaqla bioloji silahların hazırlanmasını maliyyələşdirib?" - Mask "X" sosial şəbəkəsində yazıb.

Məsələ ilə bağlı ABŞ Dövlət Departamentinin də mövqeyi birmənalıdır: "USAID proqramlarının əhəmiyyətli hissəsi ABŞ-nin əsas maraqlarına cavab vermir".

Dövlət katibi Marko Rubio bildirib ki, ABŞ yardımının yalnız 10-13%-i nəzərdə tutulan alıcıya çatır. "Qalanı isə əlavə xərclərə və bürokratiyaya gedib", - o bildirib.

### KORRUPSİYA, NARKOTİK İSTEHSALI, TALAMA

ABŞ mətbuatının məlumatına görə, agentlik korrupsiyada, yəni ehtiyacı olan ölkələrə və icmalara yardım proqramına yönəldilməli olan vəsaitlərin oğurlanmasında ittiham olunur. Milyarder Den Pena bildirib ki, kasıb ölkələrə vəd edilən pullardan onlara heç nə çatmır, bu rəqəm 0%-ə yaxındır. Onun sözlərinə görə, bunu hamı bilir, amma heç kim danışmır.

USAID-in adı narkotik vasitələrin satışı və becərilməsində iştirakda da hallanır. Belə ki, USAID Əfqanıstanda heroinin yetişdirilməsinə maliyyə dəstəyi verib. Mediada təşkilatın Soros Fondu tərəfindən maliyyələşən prokurorlar qrupuna 27 mln. dollar ayırdığı barədə də xəbərlər yayılıb.

### AZƏRBAYCAN RƏHBƏRLİYİNİN UZAQGÖRƏNLİYİ

Qeyd edək ki, USAID uzun illər postsovet məkanı, eləcə də Cənubi Qafqazda müstəqil xarici siyasət yürüdən dövlətlərin daxili işlərinə qarışması, inqilablara sponsorluq etməsi ilə tanınıb. Lakin Azərbaycan rəhbərliyinin uzaqgörən siyasəti nəticəsində bu təhdidlər minimallaşdırılıb və tamamilə aradan qaldırılıb. Elə bu səbəbdəndir ki, Bayden administrasiyası dönəmində Vaşinqtonla Bakı arasında münasibətlərdə narazılıqlar olub.

Bu baxımdan Azərbaycan rəhbərliyinin USAID-in taleyi ilə bağlı bir müddət əvvəl səsləndirdiyi fikirlər diqqət çəkir. Hələ keçən ilin dekabrında Prezident İlham Əliyev "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru Dmitri Kiselyova müsahibəsində bildirib ki, yardım asılılıq yaratmamalıdır: "Ona görə də Bayden administrasiyası tarixdə, o cümlədən nə ilə yadda qalacaq? Bir çox məsələ, amma o cümlədən bir göstərici ilə. Bu, yaxadan asılmaqdır. Biz sizə kömək etmək istəyirik. Biz isə deyirik: sağ olun, ehtiyac yoxdur. Onlar təkid edirlər. Bax, onların USAID adlı strukturu var. Yardım etmək istəyir, amma nədənsə bizə lazım olan məsələdə deyil. Zənnimcə, Tramp onu qadağan edə bilər. Mən düşündüyümü deyirəm, o, ümumiyyətlə, sıradan çıxa bilər".

Məsələ ilə bağlı xarici işlər naziri Ceyhun Bayramovun yanvarın ortalarında açıqladığı məqamlar da vurğulanmalıdır. Nazir bəyan edib ki, USAID-in 2024-cü il 1 iyul tarixindən Azərbaycanda fəaliyyət göstərməsi de-yure mümkün deyil. O xatırladıb ki, 2000-ci ildən çərçivə sənədi mövcud idi: "Biz o sənədin müddəalarını və son illər ərzində icranın necə baş verdiyini təftiş etdik. Məlum oldu ki, onların fəaliyyəti Azərbaycanın istəyi və maraqları formatında deyil, ABŞ-nin Azərbaycanda gündəliyinin həyata keçirilməsinə xidmət edir".




## SAMANTA PAUERLƏ RUBEN VARDANYANI BİRLƏŞDİRƏN MARAQLAR

USAID-in anti-Azərbaycan fəaliyyəti tək ölkəmizdə daxili siyasi proseslərə müdaxilə ilə yekunlaşmır. Burada ən çox diqqəti cəlb edən məqam təşkilatın bu illər ərzində bir dəfə də olsun Ermənistanın Azərbaycana təcavüzünü pisləməməsi, bir milyondan çox qaçqının öz torpaqlarına qayıtması üçün səy göstərməməsi, hətta onlara bir manat da yardım ayırmamasıdır. USAID-in direktoru da ermənipərəst Samanta Pauerdir. O, dəfələrlə Azərbaycanın ərazi bütövlüyü və suverenliyini vaxtilə təhdid edən separatçılara dəstək verməsi ilə tanınır. Onun Qarabağda özünü "dövlət naziri" elan edən və hazırda Bakıda məhkəməsi keçirilən erməniəsilli rusiyalı milyarder Ruben Vardanyanla da sıx əlaqələri daim müzakirə mövzusu olub. Vardanyanın "Aurora" təşkilatının təsis etdiyi mükafatlardan biri məhz Samanta Pauerə verilib. Bu mükafat isə sadəcə çərçivələnmiş diplom demək deyil. Laureat bir milyon dollar məbləğində qrant alıb. Təbii ki, bu qrant Samantaya ermənipərəst mövqeyi, separatçılara dəstəyi müqabilində verilib.

Beləliklə, artıq hər bir istiqamətdə çərçivələri aşaraq hətta ABŞ-nin özünün maraqlarını təhdid halına gələn USAID ətrafında yaşananlar ciddi proseslərin xəbərçisi kimi də qiymətləndirilə bilər. Bu addımlar bədnam Bayden-Blinken cütlüyünün dünyada yaratdığı bataqlıq mənbələrinin qurudulması istiqamətində bir şans kimi görünür. Hər şey Tramp administrasiyasının qətiyyətindən və iradəsindən asılıdır.

# TRAMP KOSMOSU DA FƏTH ETMƏYİ PLANLAŞDIRIR



ABŞ prezidenti müdafiə naziri Pit Heqsetə 60 gün ərzində "Dəmir qübbə" adlandırılacaq ən yeni raketdən müdafiə sisteminin layihəsi və yerləşdirilməsi planını təqdim etməyi tapşırıb. Bu layihənin minimum 300 milyard dollara başa gələcəyi proqnozlaşdırılır.



AZƏR NURİYEV

ABŞ Prezidenti Donald Tramp yeni layihələri ilə dünyanı şoka salmaqda davam edir. Ağ ev rəhbəri birinci prezidentliyi dövründə elan etdiyi fantastik layihəsini reallaşdırmaq barədə göstəriş verib. Söhbət ölkənin ordu sisteminin əhəmiyyətli hissəsi kimi kosmik güclərin yaradılmasından gedir. O, ABŞ-nin raket əleyhinə müdafiə sistemlərinin inkişafını "Ulduz müharibələri" ilə müqayisə oluna biləcək səviyyəyə çatdırmaq niyyətindədir. Tramp hesab edir ki, ABŞ kosmosda üstün olmalıdır və bu, çox əhəmiyyətlidir. Artıq media və siyasi dairələr yeni proqrama ad da verib - "Ulduz müharibələri 2.0". ABŞ prezidenti bununla da Ronald Reyqanın kosmosda təhlükəsizlik və hökmranlıq planını yenidən canlandırmış olub.

### ABŞ-NİN DƏ ÖZ "DƏMİR QÜBBƏ"Sİ OLACAQ

Tramp ilkin olaraq müdafiə naziri Pit Heqsetə 60 gün ərzində "Dəmir qübbə" adlı ən yeni raketdən müdafiə sisteminin layihəsi və yerləşdirilməsi planını təqdim etməyi tapşırıb. "Ballistik, hipersəs və qanadlı raketlər, eləcə də digər müasir hava hücumu təhlükəsi vasitələri ABŞ-nin üzləşdiyi ən fəlakətli təhdid olaraq qalır", - sənəddə qeyd olunub. Bildirilib ki, fərmanın dərc edildiyi andan 60 gün ərzində müdafiə naziri prezidentə yeni nəsil raketdən müdafiə qalxanının arxitekturasını və yaradılması planını təqdim etməlidir.

## 300 MİLYARD DOLLAR XƏRC, 650 PEYK

"Dəmir qübbə" layihəsi ballistik və hipersəs təhdidlərindən müdafiə üçün kosmik qəbuledicilərin yerləşdirilməsini nəzərdə tutur. "National Defense Magazine" nəşrinin qeyd etdiyi kimi, ad İsrailin raketdən müdafiə sistemi ilə oxşar olsa da, mahiyyət Ronald Reyqan dövründəki "Ulduz müharibələri" proqramını xatırladır. Əsas fərq - İsrailin "Dəmir qübbəsi"ndə olmayan qitələrarası raketləri dəf etmək qabiliyyətidir. "Financial Times"ın yazdığına görə, layihə kosmosda lazer sistemlərinin yerləşdirilməsini nəzərdə tutur. ABŞ-nin "Dəmir qübbə"si İsrailin eyni adlı sistemindən fərqli olaraq "100 dəfə uzağa və 7 dəfə sürətli" uça bilən raketlərdən müdafiəni də təmin edə biləcək.

"The Financial Times" yazır ki, Trampın fərmanı "raketlərin buraxılışından əvvəl məhv edilməsi sistemlərinin" yaradılmasını da nəzərdə tutur. Yəni təkcə təhlükənin deyil, daşıyıcının da neytrallaşdırılması üçün vasitələrin hazırlanması planlaşdırılır. Məhvetmə kosmosda yerləşdirilmiş lazer silahı vasitəsilə həyata keçiriləcək. İlkin hesablamalara görə, bu cür layihələrin dəyəri astronomik olacaq. ABŞ Milli Elmlər Akademiyasının 2012-ci il hesabatında göstərilirdi ki, hətta "məhdud və ciddi funksional" kosmik RƏM sistemi 300 milyard dollar dəyərində 650 peykin yerləşdirilməsini tələb edəcək.

### RUSİYA TRAMPIN PLANINA GÖRƏ NARAHATDIR

Moskvada Trampın bu təşəbbüsü tənqid edilib. Rusiya XİN-in nümayəndəsi Mariya Zaxarova bildirib ki, bu planlar ABŞ-nin eskalasiya yolu ilə getmək istəyindən xəbər verir. "Biz bunu ABŞ-nin kosmosu silahlı qarşıdurma, mübarizə meydanına çevirmək və orada silah yerləşdirmək niyyətinin növbəti təsdiqi kimi qiymətləndiririk. ABŞ-nin göstərilən yanaşmaları gərginliyin azaldılmasına, strateji sahədə vəziyyətin düzəldilməsinə, o cümlədən səmərəli dialoq üçün zəmin yaradılmasına kömək etməyəcək", - deyə Rusiya XİN-in sözçüsü bildirib.

Hərbi ekspertlər hesab edirlər ki, ABŞ-nin "Ulduz müharibələri 2.0" proqramı Rusiya və onun müttəfiqləri üçün təhlükə təşkil edir. Bu proqrama Rusiya, Çin və digər ölkələrin reaksiyası, əlbəttə ki, olacaq.



## NÜVƏ SINAQLARI BƏRPA OLUNUR?

Tramp komandasının Ağ evə gəlişi ilə silahlanma yarışının təkcə kosmosda deyil, geniş miqyasda davam etməsi ehtimalı qalır. Belə ki, mövcud nüvə silahları güclü şəkildə modernləşdirilir. ABŞ yayım şirkəti NPR-in məlumatına görə, ölkə yazda mövcud nüvə silahlarının effektivliyini yoxlamaq və sonrakı modifikasiyası üçün Nevadakı poliqonda az miqdarda plutoniumun yeraltı partlayışının reallaşdırılmasını planlaşdırır. Amerikalı alimlərin fikrincə, nüvə silahlarının sınaqları zəruridir, çünki onlara sahib olan ölkələr peykləri, dəniz limanlarını və digər mühüm obyektləri məhv edə bilən yeni silah növləri hazırlayırlar.

Tramp hakimiyyətə gələrsə, ABŞ-nin yeraltı nüvə sınaqlarına başlaya biləcəyi barədə Amerika KİV-ləri hələ 2024-cü ilin yayında yazırdı. "The New York Times" Trampın keçmiş milli təhlükəsizlik müşaviri Robert O'Brienin sözlərini sitat gətirərək bildirirdi ki, Vaşinqton "Çin və Rusiya nüvə arsenalları üzərində texniki və say üstünlüyünü qorumaq üçün 1992-ci ildən bəri ilk dəfə yeni nüvə silahının etibarlılığını və təhlükəsizliyini sınaqdan keçirməlidir". Qəzetin xatırlatdığı kimi, "soyuq müharibə" dövründə silahın konstruksiyasındakı çatışmazlıqları aşkar etmək və etibarlılığını yoxlamaq məqsədilə Çin 45, Fransa 210, Rusiya 715 və ABŞ 1030 nüvə sınağı keçirib.

Rusiya rəsmiləri dəfələrlə bəyan ediblər ki, nüvə sınaqlarının keçirilməsi ilə bağlı Moskvanın mövqeyi dəyişməzdir. Onlar yalnız ABŞ-nin oxşar addımlarına cavab olaraq nüvə sınaqları keçirilə bilərlər. RF XİN rəhbərinin müavini Sergey Ryabkov hələ 2024-cü ilin sentyabrında bildirmişdi ki, "Novaya Zemlya"dakı poliqonun infrastrukturu artıq tam hazır vəziyyətdədir.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17
E-mail: kaspiqazeti@kaspi.az

# UĞURSUZLUĞA DÜÇAR OLMUŞ VAŞİNQTON SƏFƏRİ

Paşinyanın ABŞ-də olduğu müddətdə heç bir rəsmi şəxslə görüşə bilməməsi səfərin uğursuzluğunun başlıca göstəricisidir. Çünki mümkün deyil ki, bir dövlətdə strateji tərəfdaşın lideri yüksək səviyyədə qəbul edilməsin. Səbəb odur ki, Trampın İrəvanı bəsləməyə nə vaxtı, nə pulu, nə də səbri var.





RÜSTƏM QARAXANLI

Nikol Paşinyanın ABŞ-yə gedişinin rəsmi məqsədi beşinci illik "Beynəlxalq dini azadlıq sammiti"ndə iştirak olsa da, səfər bir neçə amil baxımından maraq kəsb edirdi. İlk növbədə ona görə ki, Bayden administrasiyasının son günlərində tələsik imzalanmış strateji münasibətlərə dair sazişi Trampın ətrafından heç kim indiyədək şərh etməyib. Bu rəsmi "iqnor" atmosferində Ermənistan liderinin Vaşinqtonda necə qarşılanacağı və yaxud rəsmi şəxslərdən kimlərlə görüşəcəyi ölü doğulmuş anlaşmanın gələcək müqəddəratına dair ip ucu verə bilərdi. İkincisi isə strateji paktın bir sıra müddəalarının həyata keçməsi tarixin arxivinə atılmış USAID vasitəsi ilə icra olunacağından agentliyin qapanması fonunda erməni lobbisi və diasporunun davranışı maraq doğururdu. Həm USAID kimi donordan olan, həm də rəsmi strukturlar tərəfindən inkar edilən Paşinyan bütün bunlara rəğmən ilk və bəlkə də ən ağrılı zərbəni soydaşlarından - ABŞ-də yaşayan ermənilərdən aldı.

### ABŞ-DƏ "ERMƏNİ QONAQPƏRVƏRLİYİ"

Çörək verənə arxa çevirmək və xəyanət etmək erməni xalqının genetik kodunda yazılıb. Tarix boyu çox himayədar satmış ermənilər bu dəfə özlərindən olan Paşinyana qarşı da amansız oldular. ABŞ-yə ayaq basdığı andan onu müşayiət edən yerli ermənilər baş naziri hər yerdə sərt tənqid atəşinə tutub, qorxaqlıqda və 30 ilə yaxın müddətdə işğal altında saxladıqları Azərbaycan torpaqlarını "itirməkdə" günahlandırdılar.

### TRAMPA LAZIM OLMAYAN "STRATEJİ MÜNASİBƏTLƏR"

Paşinyanın ABŞ-də olduğu müddətdə arzuladığı rəsmi şəxslərlə görüşə bilməməsi səfərin uğursuzluğunun başlıca göstəricisidir. Çünki mümkün deyil ki, bir dövlətin strateji tərəfdaşı olan digər ölkənin lideri yüksək səviyyədə qəbul edilməsin. Bu miqyaslı sənədlər adətən hakimiyyətlər və ya ayrı-ayrı simalar arasında imzalanmır, daha geniş anlamda dövlətlərin birgə maraqlarını ehtiva edir. Paşinyanın səfərinin qulaqardına vurulması göstərir ki, birincisi, Ermənistanı bir dövlət olaraq ciddiyə alan yoxdur, ikincisi isə USAID çapda qurumu neytrallaşdırmaqla bütün dünyaya yardımı kəsən Tramp üçün İrəvanı bəsləməyə nə vaxt, nə pul, nə də səbir var. Odur ki, Paşinyanın ümidi qalır yalnız Makron Fransasına. Makron isə itirə-itirə gedir ki, ən böyük itkisi də Fransa boyda dövlətin dünyadakı imici və reputa-siyası-dır.



Qaro Paylan  Emmanuel Makron

## USAID-siz Ermənistana çox çətin olacaq

ABŞ hökumətinin xarici yardımlarını tənzimləyən qurumun qapanması Ermənistanın xarici siyasətinə dəymiş ən böyük zərbələrdən biridir. USAID-in Ermənistanın həyatındakı rolu ölçüyəgəlməzdir. Həm həyata keçirilən layihələrə dəstək, həm də Azərbaycana qarşı qərəzli mövqeyi ilə seçilən ermənipərəstliyi baxımından. Qurumun ermənidən daha çox erməni olan sabiq rəhbəri Samanta Pauerin bizə qarşı düşmən mövqeyi yaddaşlardan hələ silinməyib.

Həm yeni administrasiya tərəfindən diqqətsizliyi görən, həm də USAID kimi maliyyə mənbəyini itirən Paşinyan çıxış yolu təskinliyi erməni diasporu və lobbisi ilə sıx işbirliyində olan mərkəzlər və fondlarda keçirdiyi görüşlərdə, habelə ermənipərəst senator və konqresmenlərlə bir araya gəlməkdə tapmalı oldu. Yeri gəlmişkən, bu görüşlərdə iştirak edən Adam Şiff, Frenk Palloun, Riçard Hadson, Rocer Uiker, Endi Harris və digərləri Paşinyanın səfəri ilə üst-üstə düşən USAID-in qapadılmasına ən çox etiraz edən şəxslərdir. Birincisi, özlərinin vasitəçilik etdikləri prosesdə faizləri kəsilir, ikincisi isə muzdla müdafiə etdikləri Ermənistana maliyyə yardımları.

## Mələk görkəmi ilə maskalanmış müharibə şeytanları

ABŞ-də olduğu günlərdə Paşinyan erməni icması ilə keçirdiyi görüşlərdə barış və sülh mesajlı çıxışları ilə diqqəti cəlb etməyə çalışdı. Ancaq bu gün xüsusilə 30 illik "sülh göyərçini" olan Ter-Petrosyanın məlum videogörüntüləri üzə çıxandan sonra Ermənistanda kiminsə həqiqətən də barışıq tərəfdarı olduğuna dair zərrə qədər olsa da, ümid və güvən qalmayıb. Heç Paşinyanın özü də Ter-Petrosyandan fərqlənmir. 44 günlük müharibədən öncə "Qarabağ Ermənistandır və nöqtə" deyən Paşinyanın da üzə çıxan kitabında Azərbaycanın əzəli torpaqlarında təşəkkül tapmış dövlətinin Ağdamdan şərqə, Bakıya doğru daha da irəliləməsini vəsf edən arzular, xəyallar təsvir olunur.

Onun Vaşinqton səfəri ərəfəsində İrəvanda qəbul etdiyi Karnegi Fondunun heyətində daha bir faşist görüşlü erməni - Türkiyədə siyasi bölücülüklə məşğul olan Qaro Paylanın yer alması qənaətimizin aşkar sübutudur. Paylan bu yaxınlarda verdiyi bir müsahibədə bildirir ki, hazırda Ermənistanın Azərbaycana qalib gəlməyə gücü yoxdur, ancaq 3-5 ilə Fransa və ABŞ-nin köməkliyi və hərbi dəstəyi ilə itirdiklərini qaytara biləcək. Paylan Türkiyədə PKK terror təşkilatının siyasi qolu olan HDP-də təmsil olunur və hətta 2018-ci ildə qardaş dövlətin parlamentinə seçilməyi də bacarıb. Təbii ki, qanunverici orqandakı qızışdırıcı və separatizm qoxulu çıxışları ilə yadda qalıb. 44 günlük Vətən müharibəsində Ankaranı Azərbaycanı dəstəkləməkdə suçlayan Paylan hər il aprel ayında "erməni genosidi"nə dair paylaşımlar edir və Türkiyəni "soyqırımı" törətməkdə günahlandırır. Belə bir faşist dünyagörüşlü şəxsin Paşinyanla nələri müzakirə etdiyi barədə çox düşünməyə ehtiyac varmı? Revanşizm xülyaları ilə yaşayan simalarla, diaspor nümayəndələri ilə görüşlər keçirən şəxsin sülh tərəfdarı olması nə dərəcədə inandırıcı ola bilər?

# DƏYİŞKƏN İŞ QRAFİKİ NƏYİ DƏYİŞƏCƏK?

Bakıda nəqliyyat axınını optimallaşdırmaq məqsədilə dövlət qurumları, təhsil və tibb müəssisələrinin iş rejimi dəyişkən qrafikə əsasən tənzimlənəcək. Bu məsələdə iş saatları ilə bərabər, istirahət günlərinin dəyişdirilməsi də real hesab edilir.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az




Bakıda bəzi sahələr üzrə iş qrafikinin dəyişdirilməsi gündəmdədir. Belə ki, paytaxtın nəqliyyat infrastrukturunun təkmilləşdirilməsini nəzərdə tutan 2025-2030-cu illər üçün Dövlət Proqramında tıxacların aradan qaldırılması məqsədilə müəyyən işlərin görülməsi nəzərdə tutulub. Bu işlərdən biri də Bakıda nəqliyyat axınını optimallaşdırmaq məqsədilə dövlət qurumları, təhsil və tibb müəssisələrinin iş rejiminin dəyişkən qrafikə əsasən tənzimlənməsidir. 2025-2026-cı illərdə dövlət və özəl sektorun, eləcə də təhsil və tibb müəssisələrinin iş rejiminin dəyişdirilməsi planlaşdırılır. Qeyd edək ki, bu yanaşma ABŞ, Avropa, Türkiyə və Rusiyada artıq geniş şəkildə tətbiq olunur və Bakıda həyata keçiriləcək dəyişikliklər beynəlxalq təcrübəyə əsaslanır.

### "BU SİSTEM EFFEKTLİ BİR MEXANİZMDİR"

Milli Məclisin deputatı Vüqar Bayramovun sözlərinə görə, yeni qərarda iş saatlarının həcmi eyni qalmaqla, yalnız vaxtlarda dəyişiklik ediləcək: "Gözlənilir ki, işə başlama və iş vaxtının bitməsi saatları fərqli olacaq. Bu zaman bütün təşkilatlarda 9.00-18.00 iş rejimi tətbiq edilməyəcək. Müəssisənin, yaxud qurumun fəaliyyət göstərdiyi sektordan asılı olaraq, iş saatı müəyyənləşdiriləcək. Əmək Məcəlləsinə uyğun səkkiz saatlıq iş rejimi tətbiq ediləcək. Yəni, yeni qərar iş saatlarının uzadılması və ya qısaldılması mənasında başa düşülməməlidir. Sadəcə, iş saatları dəyişdiriləcək".

V.Bayramovun sözlərinə görə, fərqli iş saatlarının tətbiq edilməsi bütövlükdə dövlət proqramının istiqamətlərindən biridir: "Bunun tətbiqi ölkəmiz üçün vacibdir. Avropa ölkələrinə diqqət yetirsək görərik ki, onlarda da dövlət qurumları, özəl sektor, eyni zamanda xidmət sahələri üzrə fərqli iş saatları tətbiq edilir. Buraya təhsil müəssisələri də daxildir. Azərbaycanda da buna bənzər praktikanın tətbiq edilməsi məqsədəuyğundur. Çünki bu, hər gün qarşılaşdığımız tıxacın, sıxlığın aradan qaldırılması baxımından çox vacibdir. İnkişaf etmiş ölkələrin təcrübəsinə baxdıqda demək olur ki, bu sistem effektli mexanizmdir. Bununla yanaşı, məsələnin həlli üçün digər tədbirlərin görülməsinə də ehtiyac var. Paralel aparıldığı zaman effektivlik qat-qat artacaq".

## "İş yerləri təsnifatlaşdırılmalıdır"



Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası İcraiyyə Komitəsinin sədri Sahib Məmmədov isə düşünür ki, iş saatlarının dəyişdirilməsi üçün hərtərəfli monitorinqlər keçirilməli, iş yerləri təsnifatlaşdırılmalı, işçilərin sayca çox olduğu müəssisələr müəyyənləşdirilməli, onlarda iş rejimi müəyyən olunmalıdır: "Bütün bu proseslərdən sonra işəgötürənlərlə razılaşdırılaraq iş rejimi müəyyən edilə bilər. Bu prosesin bəzi iş yerlərində bir saat tez, bəzisində bir saat gec həyata keçirilməklə tətbiqi mümkündür. Belə olan halda düşünürəm ki, tıxacları tənzimləmək mümkün olacaq".



S.Məmmədovun fikrincə, digər məsələlər də nəzarətə götürülərsə, nəticə daha ürəkaçan olacaq: "Bu, kompleks tədbirlər çərçivəsində həyata keçirilməlidir ki, effektli olsun. Əsasən, təhsil müəssisələrində mümkün tənzimləmələr olmalıdır. Təhsil müəssisələri ilə bağlı xüsusi konsepsiya var. Hansı ki, bununla bağlı müəyyən işlərin görülməsi nəzərdə tutulub. Amma tıxacı yaradan məktəblərdir. Bəzi məktəblərin qarşısında maşınların saxlanılması və sair kimi məsələlər vəziyyəti daha da çətinləşdirir. O səbəbdən, bu kimi digər məqamlar da nəzarətə götürülməlidir".

## "Bəzi müəssisələr fərqli iş rejimi tətbiq edir"

Əmək qanunvericiliyi üzrə ekspert Nüsrət Xəlilovun sözlərinə görə, qanunda iş saatlarının 9.00-18.00 olması ilə bağlı heç bir tələb mövcud deyil: "Qanunvericiliyin tələblərinə görə vətəndaş gündəlik səkkiz, həftəlik 40 saatdan çox olmayan iş rejimində çalışmalıdır. Amma, bu saatların nə zaman olması bildirilmir. Düzdür, bəzi kiçik müəssisələr var ki, hazırda da fərqli iş rejimini tətbiq edirlər. Lakin onların da sayı çox az olduğundan, bu, pik saatlarda sıxlığın azalmasına təsir etmir".

N.Xəlilov yeni qaydaların necə tənzimlənəcəyinə də aydınlıq gətirdi: "Məsələn, bəzi müəssisələrdə iş saatı 10.00-19.00 aralığıdır. Bəziləri 8.00-17.00 olaraq təyin edir. Əgər bu, digər yerlərə də aid edilsə, hər bir müəssisə üçün iş saatı müəyyənləşdiriləcək. Bu halda da işçilərin əmək müqavilələrinə müvafiq dəyişikliklər ediləcək. Bəzi müəssisələrdə, xüsusən də dövlət müəssisələrində iş saatları qrafiklə bölüşdürüləcək. Hər bir sahəyə aid peşələrin işə başlama və bitirmə saatları fərqli olacaq".




**Foto:** Firudin Səlimov - Global Photostock

### "İSTİRAHƏT GÜNLƏRİNİ DƏ DƏYİŞMƏK MÜMKÜNDÜR"

Ekspertin fikrincə, iş saatları dəyişdiyi zaman həftə sonu istirahət günlərini də dəyişmək mümkün ola bilər: "Çünki bununla bağlı da qanunvericilikdə heç bir məhdudiyyət nəzərdə tutulmayıb. Bəzi müəssisələr fərqli istirahət günləri müəyyən edə bilər. Bu da şəhərin yükünün azalmasına fayda verəcək. İstirahət günlərinin dəyişməsi insanlar üçün də sərfəlidir. Elə insanlar var ki, həkimə getməli, yaxud hansısa qurumda işlərini həll etməlidirlər. Lakin işdən icazə almaları çətindir. Həftə sonu bir çox müəssisələr çalışmır, banklar işləmir, səhiyyə sahəsində də ixtisaslı həkimlər həmin günlərdə istirahətdə olur, yalnız növbətçi həkimlər fəaliyyət göstərirlər. Belə olan halda şəxs işini həll edə bilmir. Amma bu kimi dəyişikliklər insanlara işdən əlavə digər məsələlərini də həll etmək üçün şərait yaradacaq".

## HƏKİMLƏRİN MƏSULİYYƏTİNİ ARTIRMAQ ÜÇÜN CİDDİ NƏZARƏT OLMALIDIR

Son vaxtlar həkimlərin məsuliyyətə cəlb olunması, həkim səhvləri, hətta onların həbs edilməsi ilə bağlı xəbərlər ölkə gündəmini zəbt edib. Sosial şəbəkələrdə həkimlərə qarşı kampaniya təşkil edənlər də var, onları müdafiə edənlər də.

# SİZ DEYİN, KİMDİR MÜQƏSSİR?!





AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

"Hər ölən xəstəmlə bir parçam ölüb, günlərlə "daha nə edə bilərdik" sualları ilə içimi yemişəm. Buna rağmən yenə də ölkəm üçün bir şeylər etməyə çalışmışam. Bütün bunların üzərinə bir də həkimin həbs edilməsi gələcəyim haqqında bütün ümidlərimi bitirdi. Ürək həkimi olduğum üçün çox xəstə itirmişəm. Əfsuslar olsun ki, bundan sonra da itirəcəm, bütün həkimlərin əlində ağırlaşmalar və ölümlər olacaq. Sonunda bir bəndəyik və nə qədər çalışsaq da, hər kəsi xilas edə bilmərik. Buna görə məni həbs etsələr, yəqin ki, ömürlük verməlidirlər".

Bu fikirlər tibb üzrə fəlsəfə doktoru, kardioloq Üzeyir Rəhimova məxsusdur. Həkim hazırda tibb işçiləri ilə bağlı gedən müzakirələrdən narahatlığını ifadə edir. Deyir ki, papağımızı önümüzə qoyub son dəfə düşünməliyik: "Artıq həkimlər çətin və ağır xəstələri qəbul etməyəcək, bu da ölümlərin artmasına, ömrün qısalmasına səbəb olacaq. Xarici ölkələrə üz tutan həkim sayı isə daha da artacaq".

Son vaxtlar həkimlərin məsuliyyətə cəlb olunması, həkim səhvləri bağlı xəbərlər ölkə gündəmini zəbt edib. Sosial şəbəkələrdə həkimlərə qarşı kampaniya (linçlənmə) təşkil edənlər də var, onları müdafiə edənlər də. Bu linç kampaniyası peşəkar həkimlərə necə təsir edir? Proses ölkədən həkim axınını sürətləndirə bilərmi?

Almaniyanın Həkimlər Palatasının rəsmi səhifəsində qeyd olunub ki, 2023-cü il dekabrın sonu üçün artıq 1617 azərbaycanlı bu ölkədə həkim kimi işləmək hüququ qazanıb. 2022-ci ilin sonunda bu rəqəm 1359 nəfər idi. Bu statistikaya Türkiyə və digər ölkələri əlavə etsək, kifayət qədər axın olduğunu görə bilərik.

### "BU HƏKİMLƏR CİNAYƏT MƏSULİYYƏTİNƏ CƏLB OLUNMALIDIR"

Millət vəkili Müşfiq Məmmədli "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, qanunvericiliyin tələblərinə uyğun fəaliyyət göstərməyən həkimlər cinayət məsuliyyətinə cəlb olunmalıdır: "Sosial şəbəkələr bəzi hallarda obyektiv fikirlərin ifadə olunduğu platforma olsa da, bəzi insanlar üçün də reklam meydanıdır. Biz burada obyektiv məsələləri təhlil etsək, təbii ki, müəyyən qanuni prosedurları doğru icra etməyərək, dolayı yollarla hansısa sertifikata malik olan, işinin peşəkarı olmayan, insan sağlamlığına zərər verən həkimlərin cinayət məsuliyyətinə cəlb olunması təbiidir. İnsanların sağlamlıqlarının qorunmasında hər kəs qanunvericiliyin bütün müddəalarına ciddi şəkildə riayət etməlidir. Çünki qanunsuz yollarla hansısa bir prosesi icra etməyin özü gələcəkdə ağır nəticələrə gətirib çıxara bilər".

## NƏ HƏDDƏN ARTIQ SƏRT TƏDBİRLƏR, NƏ DƏ LİBERALLIQ...

Həkimlərin xaricə axınının sürətlənməsinə gəldikdə isə, millət vəkili vurğulayır ki, nə həddən artıq sərt tədbirlər olmalıdır, nə də həddən artıq liberallıq: "Tənzimləməni həyata keçirən təşkilatlar özləri də qanunvericilik normalarına ciddi şəkildə riayət etməlidirlər. Nə həddən artıq subyektiv yanaşmaları qabardaraq "qanunvericiliyə uyğun şəkildə davranıram" deyib sərt tədbirlər görülməlidir, nə də həddən artıq liberallıq göstərərək qanunvericilik normalarının pozulmasına göz yummaq lazımdır. Səhiyyə sistemində həkimlərin, orta tibb işçilərinin və pasiyent hüquqlarının qanunvericiliyin normalarına uyğun şəkildə tənzimləmək heç bir problemlərə gətirib çıxarmayacaq. Cavabdeh qurumlar öz işlərini qanunvericilik normalarına və təlimatlara uyğun şəkildə qursalar, peşəkar həkimlərin fəaliyyətində heç bir problem olmayacaq. Amma müxtəlif addımlarla, özünü dolayı yollarla həkim edən, yetişməmiş mütəxəssislər kimi fəaliyyət göstərərək insanların sağlamlığına zərər vuranlar təbii ki, qanunvericiliyə uyğun şəkildə cəzalanacaqdır".

### TİBB İŞÇİSİ BAXIMLI OLMALIDIR

Sosial şəbəkələrdə həkimlərin linçlənməsi məsələsinə gəldikdə isə, millət vəkili təsdiqləyir ki, haqsızlıq edilən həkimlər də çoxdur: "Peşəkar həkimlərə qarşı haqsızlıq elementlərini müşahidə edirik. Hətta həkimlərin baxımlı olmasını irad bildirənlərə də rast gəldim. Bu irad çox absurddur. Çünki tibb işçisi, sosial sahədə işləyən insanlar daim xəstələrlə əlaqədə olurlar. Onlar görünüşü, ölçülü-biçili olması, təmizliyi ilə insanlarda əminlik yaratmalıdır. Təbii ki, tibb işçisinin xoş əhvali-ruhiyyədə, gözəl görkəmdə olması, geyiminin standartlara uyğun təmiz, səliqəli olması həm sağlamlığı ilə bağlı müraciət edən xəstədə müsbət aura yaradır, həm də ona inamı artırır. Tibb işçisinin baxımlı olmasından təbii heç nə yoxdur".

## HƏKİMLƏRİN MİQRASİYASI SÜRƏTLƏNİB

Sosial ekspert İlqar Hüseynli isə deyir ki, Azərbaycanda həkimlərlə bağlı son illərdə yaranan ajiotaj narahatlıq doğurmaya bilməz: "Səhiyyə xidmətinin düzgün təşkil edilməsi bütün dünyada önəmlidir. Demək olar ki, dünyanın əksər ölkələrində həkim çatışmazlığı müşahidə olunmaqdadır və bu proses davam edir. Təəssüflər olsun ki, artıq ölkəmizdə həkimlərin miqrasiya prosesi sürətlənib. Belə vəziyyətdə həkimlərlə bağlı müzakirələr narahatlıq doğurmaya bilmir. Burada, əsasən plastik cərrahiyyə ilə bağlı yaranan narazılıqlar qığılcım rolunu oynadı".



Müşfiq Məmmədli

Mütəxəssis vurğulayır ki, həkimlərə təzyiq etmək, onları xüsusi nəzarət altında saxlamaq uğurlu nəticələrə gətirib çıxarmayacaq: "Onsuz da əməkhaqqı və maddi təminatlarının az olmasını əsas gətirərək ölkədən Almaniyaya, Türkiyəyə gedən kifayət qədər həkim var. Düşünürəm ki, həkimlərin hər hərəkətinə sərt müdaxilələr etsək, bu, onların ölkədən getməsinə səbəb yaradan əsas faktora çevriləcək. Hər hansı hadisədə həkimi birtərəfli günahlandırmaq, dərhal həbs etmək düzgün deyil".



İlqar Hüseynli

# NİYYƏT YAXŞIDIR, AMMA ÇƏTİNLİKLƏR DƏ VAR



**Universitetlərin şəhər kənarına köçürülməsi ilə bağlı məsələ yenidən aktuallaşıb. Bunu müsbət qarşılayanlarla yanaşı, prosesin asan olmayacağı qənaətində olanlar da var.**



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Universitetlərin paytaxtdan kənar ərazilərə köçürülməsi məsələsi illərdir müzakirə olunur. Bu prosesin nəqliyyat sıxlığını azaltmaq üçün düzgün addım olduğunu düşünənlərlə yanaşı, reallaşdırılmasının problemli olacağını hesab edənlər də var. Ancaq məsələ yenidən gündəmə gəlib və özü də bu dəfə daha ciddi. Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025–2030-cu illər üçün təsdiqlənən Dövlət Proqramı paytaxtda yerləşən ali təhsil müəssisələrinin köçürülməsi məsələsinə diqqət yönəldib. Sənədə görə, bu illər ərzində Bakı şəhərində yerləşən təhsil müəssisələrinin fəaliyyətinin şəhərin nəqliyyat sıxlığına təsirinin qiymətləndirilməsi və müvafiq təkliflərin hazırlanması təmin ediləcək.

Universitetlərin köçürülməsinə münasibət isə həmişəki kimi birmənalı deyil. Bütün hallarda məsələnin həlli istiqamətində dünya təcrübəsini də öyrənməyə çalışdıq.

## Təzə, ya köhnə?

Kembric Universitetinin professoru Qərib Mürşüdov hesab edir ki, bu, mürəkkəb məsələdir: “Britaniyaya baxaq: Kembricdə universitet şəhərdədir. Hətta demək olar ki, şəhərin əsas hissəsidir. Oksford da onun kimi. London da mənim tanıdığım universitetlər şəhərdədir. Yorkda şəhərdən kənardadır. Ekseterdə şəhərdən bir az kənardadır. Mançesterdə şəhərdədir. İndi gəlin baxaq: Kembric, Oksford və Londondakı universitetlərin yaşı 200 ildən çoxdur. Yorkdakı universitet 60-cı illərdə yaradılıb. Biz o biri universitetlərə də baxa bilərik. Çox güman ki, belə nəticəyə gələcəyik ki, köhnə universitetlər şəhərdə, təzələri isə şəhərdən kənardadır. Tədqiqat institutları da onun kimi. Nisbətən təzə tədqiqat institutları şəhərdən kənardadır. Köhnələri isə şəhərin mərkəzinə yaxındırlar”.

Professor hesab edir ki, köhnə universitetləri şəhərdən kənara çıxartmaq da, təzə universitetləri şəhərdə tikmək də çox baha başa gələ bilər. Ona görə universitetlərin şəhərdən kənara çıxarılması məqsədəuyğun deyil: “Amma yeni universitetlər və tədqiqat institutlarının şəhərdən kənarda və hətta rayonlarda olması daha məqsədəuyğundur”. Q.Mürşüdovun fikrincə, universitetləri yerindən köçürmək nəqliyyat problemini həll etmir: “Bu problemə ayrı cür yanaşmaq daha yaxşı olar. Məsələn, ictimai nəqliyyatın inkişafı və sayının və etibarlılığının artırılması, şəhərdə şəxsi nəqliyyat vasitələri üçün əlavə vergilərin olması”.



Qərib Mürşüdov

## KÖÇÜRÜLMƏNİN HƏM ÜSTÜNLÜKLƏRİ, HƏM DƏ ÇƏTİNLİKLƏRİ VAR

ADA Universitetinin baş müəllimi, Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü Orxan Kərimzadə hesab edir ki, ali təhsil müəssisələrinin şəhərdən kənara köçürülməsi məsələsi tələbələr üçün həm üstünlüklər, həm də çətinliklər yarada bilər: “Əgər ali təhsil müəssisələri şəhərdən kənarda yerləşərsə, bu, ilk növbədə yeni infrastruktura çıxışı təmin edəcək. Belə ki, şəhərdən kənarda yerləşən universitetlər adətən müasir kampuslara və geniş tədris sahələrinə malik olurlar. Bu, tələbələrin təhsil və sosial həyatını daha da yaxşılaşdırmağa imkan verir. Həmçinin şəhər mərkəzindən uzaq ərazilərdə yaşayış xərcləri daha aşağı olduğuna görə, tələbələr üçün maliyyə baxımından daha əlverişli şərait yaranır. Bundan əlavə, şəhərdən uzaq ərazilərdə daha sakit və təmiz mühit mövcuddur ki, bu da tələbələrin təhsil prosesinə müsbət təsir göstərə bilər”. İŞ üzvünün sözlərinə görə, dünyanın bir çox ölkəsində ali təhsil müəssisələri şəhər mərkəzlərindən kənarda yerləşir. Məsələn, ABŞ və Avropa ölkələrində bir çox universitetlər geniş kampuslara malikdir və tələbələr üçün hərtərəfli şərait yaradır:



Orxan Kərimzadə

“Türkiyədə də universitetlərin əksəriyyəti şəhərdən kənarda yerləşən kampuslarda fəaliyyət göstərir. Bu təcrübə tələbələrə daha geniş tədris və yaşayış sahələri, eləcə də təbiətlə daha yaxın əlaqə imkanı verir. Eyni zamanda, universitetlərin şəhərdən kənara köçürülməsi şəhərdaxili ictimai nəqliyyat sıxlığını azaldacaq, həmin regionda yaşayış keyfiyyətini artıracaq, yeni infrastruktur və iş yerləri yaradacaq ki, bu da həmin ərazinin inkişafına müsbət təsir göstərəcəkdir”. O.Kərimzadə bu cür dəyişikliklərin bəzi çətinliklər yarada biləcəyini də xatırlatdı. Məsələn, universitetlərin şəhərdən kənara köçürülməsi tələbələr üçün nəqliyyat problemlərinə səbəb ola bilər: “Gündəlik olaraq universitetə getmək üçün tələbələr daha çox vaxt sərf etməlidirlər və onlar ictimai nəqliyyatın çatışmazlığı ilə üzləşə bilərlər. Tələbələrin çoxu ictimai nəqliyyatdan istifadə edir. Eyni zamanda, şəhər mərkəzindəki müxtəlif əyləncə və mədəniyyət obyektlərinə çıxışın məhdud olması tələbələrin sosial həyatını məhdudlaşdıra bilər”.

### “TƏLƏBƏLƏRİN RAHATLIĞI DA NƏZƏRƏ ALINMALIDIR”

Amerikada çalışan təhsil eksperti Qoşqar Məhərrəmov da hesab edir ki, şəhərdə yerləşən universitetlərin özünəməxsus şəhərcikləri varsa, onların şəhərdən kənara köçürülməsi düzgün deyil: “Amma dar binada, sıxılmış bir yerdə fəaliyyət göstərən, kampusu olmayan ali məktəblərin köçürülməsi məqsədəuyğundur. Kampusa malik olmağın müəyyən üstünlükləri var. Orada tələbə üçün yataqxana tikilir, laboratoriyalar qurulur, asudə vaxtın təşkili üçün müəyyən yerlər olur. Bu mənada, universitetin şəhərcik formasında olması və onun içərisində tələbənin həyatının müxtəlif mərhələlərini yaşaya biləcəyi məkanların təşkili önəmlidir. Xarici təcrübədə də elə universitetlər var ki, yalnız bir binadan ibarətdirlər. Bu, yaxşı nümunə deyil. Universitetlərin şəhərcik formasında olması daha faydalıdır. Çünki onda kampus mədəniyyəti formalaşır, tələbələrin sosiallaşması üçün daha münbit şərait yaranır”. Ekspert hesab edir ki, universitetlər şəhərin xaricinə köçürülən zaman tələbələrin rahatlığı da nəzərə alınmalıdır: “Fikrimcə, yeni kampuslar tikilib universitetlər ora köçürüləcəksə, mütləq şəhərin bir çox yerindən ödənişsiz və ya endirimli ödənişlərlə tələbələr üçün servislər təşkil olunmalıdır”.



Qoşqar Məhərrəmov

# SOCAR "AĞILLI" QAZ SİSTEMİ TƏTBİQ EDƏCƏK




"IntelliGrid"lə imzalanan saziş çərçivəsində süni intellekt imkanlarından istifadə ediləcək. Bu, qaz istehlakını optimallaşdırmağa, itkiləri minimuma endirməyə imkan verəcək.

Bakıda "IADC Drilling Caspian 2025" konfrans və sərgisi keçirilir. Beynəlxalq Qazma Podratçıları Assosiasiyasının (IADC) təşkil etdiyi tədbirdə sənaye liderləri və qazma mütəxəssisləri problemlərin müzakirəsi, qabaqcıl təcrübə və praktikanın mübadiləsi üçün iştirak edirlər.

### 480 MİLYON DOLLARLIQ LAYİHƏ

Tədbirdə çıxış edən Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) prezidentinin müşaviri Elçin Ağakişiyev bildirib ki, Azərbaycanda "ağıllı qaz şəbəkəsi"nin idarəetmə sisteminin tətbiqinə 480 milyon ABŞ dollar yönəldiləcək: "COP29-da SOCAR ilə "IntelliGrid" arasında "Azəriqaz" İstehsalat Birliyinin (İB) xidmət zonasında "ağıllı qaz şəbəkələri"nin qabaqcıl idarəetmə sisteminin tətbiqi ilə bağlı razılaşma əldə olunub. 480 milyon ABŞ dollar dəyərində olan layihə çərçivəsində qaz sızmalarının azaldılması üçün süni intellektdən (Sİ) istifadə edilməsi planlaşdırılır". Sənədə əsasən, qazpaylayıcı şəbəkəyə data analizini, proqnozlaşdırıcı texniki xidməti və real vaxt monitorinqini inteqrasiya etmək üçün "IntelliGrid"in süni intellekt imkanlarından istifadə ediləcək. Bu, qaz istehlakını optimallaşdırmağa, itkiləri minimuma endirməyə və ümumi əməliyyat səmərəliliyini artırmağa imkan verəcək.

### SOCAR-IN SƏYLƏRİ TƏSDİQLƏNİB

E.Ağakişiyev vurğulayıb ki, COP29-da Azərbaycanın və xüsusilə SOCAR-ın neft-qaz sektorunda emissiyaların azaldılması ilə bağlı səyləri təsdiqlənib: "SOCAR 2030-cu ilə qədər bütün obyektlərində rutin qaz yandırılmasını tam dayandırmaq, 2030-cu ilə qədər "upstream" aktivlərində emissiyaların intensivliyini 2022-ci il səviyyəsi ilə müqayisədə 30% azaltmaq, 2035-ci ilə qədər korporativ emissiya intensivliyini 30%, mütləq emissiyaları 20% azaltmaq, 2035-ci ilə qədər "upstream" aktivlərində metan emissiyalarını 0,2%-dən aşağı səviyyəyə endirmək və 2050-ci ilə qədər karbon neytrallığına nail olmaq öhdəliyi götürüb".

## XƏZƏR MƏHDUD ÖZÜNÜBƏRPA QABİLİYYƏTİNƏ MALİKDİR

Tədbirdə çıxış edən Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nümayəndəsi Könül Əhmədsoy isə diqqəti Xəzər hövzəsinin problemlərinə yönəldib. Onun sözlərinə görə, Xəzər dənizi qapalı su hövzəsi olaraq məhdud özünübərpa qabiliyyətinə malikdir. Buna görə də regionda ən sərt ekoloji standartlar tətbiq edilməlidir. Azərbaycanda mütəxəssislər əməliyyatlar zamanı xüsusilə ehtiyatlı yanaşma tətbiq edirlər. "Bəzən operatorlar Şimal dənizi, Meksika və ya Fars körfəzində istifadə olunan standartlara və ya texnologiyalara istinad edirlər. Lakin Xəzər tamamilə başqa bir hekayədir. Xəzər unikal endemik və biomüxtəlif mühitə malikdir. O, qapalı su hövzəsidir və açıq dənizlərdə, okeanlarda tətbiq olunan metodlar həmişə ona uyğun gəlmir. Qapalı su hövzəsi olaraq özünübərpa imkanları məhduddur. Bundan əlavə, uzun illər ərzində aktiv neft və qaz hasilatı ona əhəmiyyətli ziyan vurub. Burada hasilat insanlar ətraf mühitin qorunması barədə düşünməyə və bu proseslərin risklərini dərk etməyə başlamazdan xeyli əvvəl başlayıb", - nazirlik rəsmisi qeyd edib.

### "BU PRİNSİP TƏKCƏ DƏNİZ ÜÇÜN DEYİL"

K.Əhmədsoy vurğulayıb ki, nazirlik Xəzərdəki layihələrin bütün dünyaya nümunə olması üçün regionda ən yaxşı beynəlxalq təcrübələrin, ən sərt ekoloji standartların tətbiqini vacib hesab edir: "Bu prinsip təkcə dəniz üçün deyil, quru üçün də vacibdir. Təəssüf ki, Abşeron yarımadasında, Kür və Araz çaylarının aşağı axarlarında minlərlə hektar torpaq neft məhsulları ilə çirklənib. Bu problemin həlli kompleks yanaşma tələb edir. Məhz buna görə də Xəzər regionu xüsusi diqqət və qayğıya ehtiyac duyur. Məqsədimiz aydındır: biz təbiətin bərpasına imkan verməklə yanaşı, ekoloji məhdudiyyətlər çərçivəsində istehsal nəticələrinə nail olmalıyıq".

# "BAKCELL" YENİ PRESTİJLİ 100 SERİYALI NÖMRƏLƏRİNİ TƏQDİM EDİR

İnnovasiya və sürət lideri "Bakcell" prestij və fərqliliyi sevən müştəriləri üçün xüsusi olaraq 100 seriyalı nömrələrini təqdim edir. Yeni seriya çərçivəsində müştərilər "055 100 XX XX" formatında unikal nömrələr əldə edə biləcəklər.

Yeni 100 seriyalı prestijli nömrələri "Bakcell"in rəsmi satış məntəqələrindən fiziki SIM və eSIM olaraq əldə etmək mümkündür.




"Bakcell" Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda "Bakcell" üç milyondan çox müştərini yüksək keyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Şirkət süni intellektə əsaslanan innovasiyalar və həllər vasitəsilə Azərbaycanın davamlı inkişafına töhfə verir və Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biridir. "Bakcell" müxtəlif ölkələrdə enerji, telekommunikasiya, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən "NEQSOL Holding" beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

Kaspi
Üç əsrin qəzeti

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Rüstəm Qaraxanlı, Xanım Aydın, Aqşin Kərimov, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 314
Tiraj: 2350
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

“BANKLAR KREDİT VERƏRKƏN TƏK ÖZ PORTFELLƏRİNİ NƏZƏRƏ ALMAMALIDIR”

# XƏRCLƏYİRİK, SONRA ÖDƏYƏ BİLMİRİK

Azərbaycanda kredit kartlarından istifadə ilə bağlı rekord artım qeydə alınıb. Mütəxəssislərin fikrincə, bu məsələ gələcəkdə böyük risklərə səbəb ola bilər. Bu səbəbdən, vətəndaşlar həmin vəsaitdən ehtiyatlı istifadə etməlidirlər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

2024-cü ilin yanvar-noyabr aylarında Azərbaycanda kredit kartları ilə aparılan əməliyyatların həcmi yeddi milyard 890 milyon manat təşkil edib. Bu göstəricinin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 40.7 faiz və ya 2 milyard 282 milyon manat artıb. Ölkəmizdə kredit kartlarının sayının, həmçinin onlar vasitəsilə xərcləmələrin həcminin sürətlə artması hansısa risklər yaradırmı? Qonşu ölkələrdə vaxtilə yaşanan problemlərin bizdə də təkrarlanması təhlükəsi varmı?

### “DAHA ÇOX BORCLANMALAR KREDİT KARTLARI ÜZRƏDİR”

Maliyyə və bank məsələləri üzrə ekspert Elman Sadıqovun sözlərinə görə, insanları kredit kartlarına yönəldən səbəblər var: “Artımın səbəblərindən biri bonus və hissəli ödəniş imkanlarının genişlənməsi, həmçinin populyarlaşmasıdır. Hissəli ödədikdə məbləğ insanların gözünə böyük görünmür, hansı ki, bu da əməliyyatları artıran səbəblərdəndir. Post-terminallar da artır, kartdan-karta ödənişlərlə bağlı görülən işlər də təsir edir. Həmçinin ölkəmizdə də onlayn satış platformaları yaradılır və sayları artır. Kommunal xidmətlərin də artıq asanlıqla kart vasitəsilə onlayn şəkildə ödənilə bilməsi mümkündür. Bu da kredit kartlarının daha çox istifadə olunmasına şərait yaradır. Dünya üzrə daha çox borclanmalar kredit kartları üzrədir”. Ekspertin fikrincə, kredit kartlarından istifadədə maksimum ehtiyatlı olmaq lazımdır: “Çünki vətəndaşlar kartla pul xərclədikləri zaman bunun fərqində olmurlar. Sonradan krediti ödəmək zamanı çətinlik çəkirlər. Bir neçə kredit kartından eyni anda xərcləmə edən insanlar da var”.




## KARTDAN AĞILLI İSTİFADƏ EDİN

E.Sadıqovun fikrincə, bu amil makroiqtisadi cəhətdən riskli olmasa da, mikro-iqtisadiyyatda müəyyən risklər daşıyır: “Əhalinin nominal gəlirləri ilə bu məbləği müqayisə etdikdə görürük ki, elə də böyük rəqəm deyil. Ümumdaxili məhsul fonunda da rəqəmlər qorxu doğurmur. Ümumi iqtisadiyyatı, borclanmanı nəzərə aldıqda, elə də risk olmadığını düşünə bilirik. Lakin bu, məsələyə böyük aspektdən baxdıqda əldə etdiyimiz nəticədir. Vətəndaş mövqeyindən baxdıqda isə məsələ dəyişir. Bu borc əhalinin müəyyən bir qrupunda toplandığı üçün təhlükəlidir. 40 faizlik artım müəyyən riskləri doğurur. Mikroiqtisadi baxımdan təhlil etdikdə borclanan əhalinin bir təbəqəsidir. Onların borc yükü ilə gəlirləri arasında hansı mütənasiblik var? Çünki adətən yüksək gəlirli insanlar kredit kartları ilə bağlı məsələyə daha ağıllı yanaşırlar. Onların borc yükləri əməkhaqlarının üç mislindən çox olmur”.

### “BƏZİ İNSANLAR KREDİTƏ HƏDDƏN ARTIQ MEYİLLƏNİRLƏR”

Ekspert bildirdi ki, borclar yığıldıqca problemli kreditlərə çevrilir: “Amma bəzi insanlar kreditə həddən artıq meyillənirlər. Bir çoxlarının borc yükləri əməkhaqlarının hətta on mislinə bərabər olur. Buraya istehlak kreditləri, bank olmayan kredit təşkilatlarından alınan borclar, müxtəlif mağazalardan götürülən daxili kreditlər, həmçinin kredit kartları daxildir. Böhran baş verərsə, əhalinin böyük kütləsi ciddi problemlə üzləşəcək və borclarını ödəyə bilməyəcək. Sonra problemli kreditlər yaranır. İnsanlar ömürlərinin çox hissəsini bu yüklərdən qurtulmaq üçün xərcləyirlər. Bəzi hallarda hətta bu borclara görə dəyərli daşınmaz əmlaklarını itirirlər. Bu, həm banklar, həm də iqtisadiyyatımız üçün problem yaradar, sosial gərginliyi artırar”.

## BU VƏSAİT İQTİSADİYYATA YÖNƏLMİR

Mütəxəssis Türkiyədə bu məsələ ilə bağlı yaranmış problemə də toxundu: “Qonşu ölkələrdə baş verənləri nəzərə alsaq, görərik ki, istehlak kreditləri türk məhsullarının istehsalını dəstəklədi. Bəlkə də kredit kartları olmasaydı, oradakı istehsal bu qədər inkişaf etməzdi. İstehsal artdıqca, ixrac da artdı. Yəni kredit kartları vasitəsilə iqtisadiyyata böyük töhfə verildi. Məhz bu nəzərə alındığı üçün kredit kartlarına görə yığılıb qalan borclar sonradan dövlət tərəfindən əfv edildi. İnflyasiya səbəbindən daha rahatlıqla ödənildi”.

E.Sadıqovun sözlərinə görə, bizdə kreditlər Türkiyədən fərqli olaraq iqtisadiyyatımıza ciddi zərər vura bilər: “Bizim kimi ölkələr üçün Türkiyə təcrübəsi keçərli deyil. Çünki kredit kartları və istehlak kreditləri istehsala, iqtisadiyyatımıza o qədər də töhfə vermir. Əksinə, yaranan borc, risk ölkəmiz üçün əlavə yükdür. Bu vəsaitlər həyati vacib məhsullara deyil, lüksə, şəxsi məsələlərə sərf edilirsə, ölkəyə kapital gəlmir. Nəzərə almalıyıq ki, bu kreditlərin əksəriyyəti xaricdən məhsul idxal edilməsinə yönəlir”.

### LÜZUMSUZ XƏRCLƏRƏ YOL VERMƏYİN

Müsahibimiz risklərlə bağlı məsləhətlərini də verdi: “Bankın əsas vəzifəsi kredit verməkdir. Onlar kredit kartları ilə bunu daha da artırırlar. Burada əsas məsələ kreditlərin düzgün şəkildə verilməsidir. Banklar kredit verərkən tək öz portfellərini nəzərə almamalıdırlar. Makroiqtisadi göstəricilər, müştərinin riskləri diqqətdə saxlanılmalıdır. Kredit portfelinin yaxşı olması bir çox hallarda bankları arxayınlaşdırır. Daha çox qazanmağı düşünürlər, amma iqtisadi vəziyyətin hər an dəyişə biləcəyini nəzərə almırlar. Əhalinin hansı hissəsinin borcla yüklənməsi də nəzərə alınmalıdır. Kredit kartı borcu olanların digər borclarına da baxılmalıdır. Kredit kartından istifadə edənlərin neçə faizinin nə qədər borcunun olması, borcödəmə qabiliyyəti, aylıq gəlirləri, problemli müştəri olma ehtimalı və sair təhlil edilib nəzərə alınmalıdır. Əhaliyə də tövsiyə edərdim ki, kredit kartlarından səmərəli istifadə etsinlər. Lüzumsuz xərclərə yol verməsinlər”.


Elman Sadıqov

SƏFİRLİKDƏ ÜMUMVƏTƏNDAŞ PASPORTU İTİRİLƏN VƏTƏNDAŞ NƏ ETMƏLİDİR?

# PASPORTUMU VERİN!

Ümumvətəndaş pasportunun səfirlikdə itirildiyini iddia edən vətəndaşa cavab verən yoxdur. Səfirlik dəyən ziyanı ödəməkdən yayınır, ekspertlər bu sahədə ciddi problemlərin olduğu qənaətindədirlər.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

"Azərbaycandakı Almaniya səfirliyi vizanı pasportuma vurduqdan sonra həmin sənədi itirib. Heç bir üzr istənilmədi, heç bir tələbimə cavab verilmədi. Tək təklif bu idi: yeni pasport alın gəlin, biz həmin vizanızı 24 saat ərzində vuracağıq. Oldu, bəs məsuliyyətdən boyun qaçırmaq belə asandır?" Bu sətirləri Pəri Abbaslı adlı şəxs Şengen vizası üçün müraciət etdiyi Almaniyanın ölkəmizdəki səfirliyində pasportunun itirilməsi ilə bağlı sosial şəbəkələrdə paylaşıb. O qeyd edir ki, pasportu 16 yanvardan bəri itib, lakin bu məlumatı yalnız özü e-mail yazıb "sənədlərimdən xəbər varmı?"- deyə maraqlandıqdan sonra öyrənə bilib. P.Abbaslının fevralda xaricə uçuşu olduğu üçün təcili pasport çıxartmalı olub. ASAN Xidmətə əvvəlki pasportu təqdim edə bilmədiyi üçün 10 AZN cərimə, pasportunun bir günə hazır edilməsi üçünsə 210 AZN pul ödəyib. Səfirlik isə öz növbəsində bildirib ki, onlar yalnız pasport hazırlanması üçün ödənilən minimum məbləği ödəyəcəklər. Vətəndaşın digər bir narahatlığı isə Avropada yaşadığı üç il müddətində pasportunda yer alan viza və sərhəd giriş-çıxış möhürlərinin deaktiv olması ilə bağlıdır. "Pasportumun itməsindən 10 gün sonra xəbərləri olur, mənə stres yaşadırlar, bütün işimi-gücümü atıb yeni pasport dərdinə düşürəm. Bunun qarşılığında üzr yoxdur, anlayış yoxdur, vurulmuş zərərə görə lazımı qədər maddi ödəniş yoxdur. Alman dəqiqliyi bu dəfə işləmədi..." - deyə P.Abbaslı qeyd edib.

Vətəndaşın sənədlərini qəbul edən, onu səfirliyə çatdıran və geri qaytarılması üçün cavabdeh olan vasitəçi şirkət isə ümumiyyətlə, yaxasını kənara çəkib. Pasportun itməsi ilə bağlı heç bir geridönüş etməyib.




## ƏVVƏLLƏR DƏ BU PROBLEMLƏ ÜZLƏŞƏNLƏR OLUB

Sosial platformada, turizm qrupunda oxşar hadisənin baş verməsi ilə maraqlandıqda "şikayət etsəniz növbəti dəfə viza istəyəndə süründürməçiliyə məruz qalacaqsınız", "təəssüf ki, üzərlərinə götürmürlər. Tanıdığım iki nəfərdə də eyni hal baş verib. Hər ikisi Almaniya səfirliyində", "təəssüf ki, hər hansı ölkənin səfirliyinin digər ölkənin vətəndaşı qarşısında heç bir real məsuliyyəti yoxdur, ona görə həm itirə, həm də istədiyi süründürməçiliyi edə bilirlər", "pasport itməsi halları səfirliklərdə baş verir. Sonra nə səfirlik, nə də sənədi qəbul edən vasitəçi şirkət məsuliyyəti boynuna götürür. Vətəndaş get-gələ və lazımsız xərcə düşür..." kimi cavablar qeyd edildi.

Təəssüf ki, səyahət edən, biznes, təhsil, xəstəlik və s. şəxsi səbəblərdən viza üçün müraciət edənlərin heç biri belə bir hadisədən sığortalanmayıb. Artıq bunu deməyə əsas var. Əgər yanaşma belədirsə, vətəndaş öz hüququnu necə qorumalıdır? İşin məhkəmələrə gedib çıxmaması, vətəndaşa vaxtında təzminat ödənməsi, dəyən zərərin aradan qaldırılması üçün məsuliyyət necə müəyyənləşməlidir?

### ALMAN DƏQİQLİYİ HARADA QALDI?

Almaniyanın Azərbaycandakı səfirliyindən sorğumuza cavab olaraq bildirildi ki, onlar viza ərizəçisinin pasportunun itirilməsi halında hər cür dəstəyi göstərirlər. Azərbaycan vətəndaşlarının Almaniyaya səfərlərinə böyük marağından məmnun olduqlarını bildirən səfirliyin konsulluq sektoru pasportların itməsinin nadir hallarda baş versə belə, istisna hal olmadığını bildirdi: "Məlumatların qorunması qaydaları ilə əlaqədar olaraq ayrı-ayrı hallar barədə məlumat verə bilmərik. Ancaq ümumiyyətlə, deyə bilərik ki, çox sayda viza müraciəti həmişə xüsusi qayğı ilə işlənir. Pasport itkisi ehtimalı çox az olan, lakin heç vaxt istisna edilməyən bir vəziyyətdə, səfirlik, əlbəttə ki, zərərçəkənə bütün mümkün yardımı göstərəcəkdir. Bu cür hadisələrin tez-tez səfirlikdə baş verdiyi iddialarının yalan olduğunu qətiyyətlə təsdiq edə bilərik".

## VƏTƏNDAŞA DƏYƏN ZƏRƏR ÖDƏNİLMƏLİDİR

Turizmçilər də bu cür halların baş verdiyini təsdiq edirlər.

Turizmçi Rəhman Quliyev bildirir ki, əgər vətəndaş ümumvətəndaş pasportunu hər hansı bir orqana təqdim edibsə və sənəd orada itirilib, yaxud yararsız hala düşübsə, həmin orqan və ya müəssisə məsuliyyət daşıyır: "Vətəndaşa dəymiş ziyan qarşılıqlı anlaşma şəklində ödənməlidir. Əgər qarşılıqlı anlaşma alınmırsa, bunun hüquqi müstəvidə həlli mümkündür. Çünki vətəndaş viza rəsmiləşdirməsi üçün pasportunu vasitəçi şirkətə təqdim edəndə müqavilədə xidmətin hansı şirkət tərəfindən aparıldığı göstərilir. Belə ki, şirkət sənədlərin toplanması, səfirliyə təqdim olunması və geri qaytarılması üçün cavabdehliyi öz üzərinə götürür. Həmçinin kuryer şirkəti ilə vasitəçi şirkət müqavilə bağlayır. Sənədin geri qaytarılmasında, daşınmasında özləri cavabdehlik daşıyırlar". Turizmçi bildirir ki, qanuna görə, pasport itirildiyi halda cərimə ödənilməlidir: "Pasportun tez alınması üçün əlavə ödəniş ödənilməlidir. Pasportun içərisində vətəndaşın əvvəl aldığı vizalar da varsa, məsələ bir az da çətinləşir. Çünki o vizalar vətəndaşın gələcək səfərləri üçün başqa səfirliklərdən viza almasına dəstəyi demək idi. Təbii ki, bunlar bazada qalır, amma informasiyaları ayrı-ayrı qurumlardan yığmaq asan məsələ deyil". Turizmçi bildirir ki, vətəndaşa dəymiş bütün zərər qarşılanmalıdır: "Belə halların baş verməməsi üçün hər kəs öz işinə məsuliyyətlə yanaşmalıdır".



Rəhman Quliyev

### VASİTƏÇİ ŞİRKƏT DƏ MƏSULİYYƏT DAŞIYIR

Hüquqşünas Ruslan Vəliyev bildirir ki, vasitəçi şirkət sənədləri vətəndaşdan təhvil alanda akt tərtib etməli, götürülən sənədləri sənəddə qeyd etməlidir. Vətəndaş və şirkətin nümayəndəsi aktı imzaladıqdan sonra bir nüsxəsi vətəndaşa təqdim edilməlidir: "Əgər sənəd itərsə, vətəndaş bununla bağlı şirkətə rəsmi müraciət edə, sonra isə sənədi yeniləndikdən sonra xərcləri tələb edə bilər. Bu xərclərə həm real zərər, həm də itirilmiş vaxt və s. aid ola bilər. Yəni maddi və mənəvi zərər. Eyni qayda səfirliyə də şamil olunur".



Ruslan Vəliyev

BU SAHƏNİN İDARƏETMƏSİ KƏND TƏSƏRRÜFATI NAZİRLİYİNƏ HƏVALƏ OLUNUR

# BALIQÇILIQDA YENİ DÖNƏM



Foto: Tapdıq Abdullayev - Global Photostock

**Balıqçılıq sektoruna nəzarəti bundan sonra Kənd Təsərrüfatı Nazirliyi həyata keçirəcək. Ekspertlər Prezidentin məlum fərmanının sözügedən sahədə ciddi dönüş yaradacağı qənaətindədirlər.**

**SEVİNC ABBASOVA**

Azərbaycanda balıqçılıq sektorunda ciddi yeniliklər gözlənilir. Bu sahənin dövlət tərəfindən tənzimlənməsi Kənd Təsərrüfatı Nazirliyinə (KTN) həvalə edilib. Nazirliyin tabeliyində "Balıqçılıq və Akvakultura Mərkəzi" publik hüquqi şəxs yaradılacaq. Bu yenilik Prezident İlham Əliyevin imzaladığı müvafiq fərmanda öz əksini tapıb. Yeniliklər balıqçılıq sahəsinə nəzarətin və tənzimləmənin KTN-ə həvalə edilməsi ilə bitmir. Fərmandan aydın olur ki, balıqçılıq kənd təsərrüfatı məhsullarının istehsalı və emalına aid ediləcək. Bəs görəsən, bu fərman balıqçılıq sahəsində nəyi dəyişəcək? Yeni sənəddən gözləntilər nədən ibarətdir?

## QİYMƏTLƏR ENƏCƏK

"Azərbaycan Balıq İstehsalçıları və Emalçıları Assosiasiyası" İctimai Birliyinin sədri Zaur Salmanlının fikrincə, bu fərman Azərbaycanın balıqçılıq tarixində yeni bir səhifənin açılmasına imkan yaradacaq: "Biz dəfələrlə müvafiq dövlət orqanlarına müraciət edərək bildirirdik ki, bütün ölkələrdə olduğu kimi, Azərbaycanda da balıqçılıq sahəsi kənd təsərrüfatı sahəsinə aid edilməlidir. Bu sənədlə ilk növbədə balıqçılıq sahəsinin sahibi müəyyənləşdirilib. Tam məntiqli olaraq balıqçılığın dövlət tərəfindən tənzimlənməsi KTN-ə həvalə edilib. Fərmanla nazirliyin tabeliyində "Balıqçılıq və Akvakultura Mərkəzi" publik hüquqi şəxsin yaradılması nəzərdə tutulub. Hesab edirik ki, bu, olduqca mütərəqqi addımdır və yaxın üç ildə bunu hər bir ölkə vətəndaşı hiss edəcək. Bazarlara hər bir Azərbaycan vətəndaşının əlinin çatacağı qiymətdə balıq və balıq məhsulları təqdim olunacaq".

Z.Salmanlının sözlərinə görə, bazarlarda çeşidin artması qiymətlərin azalmasına gətirib çıxaracaq: "Bu sənəd daxili istehsalımızın artmasına səbəb olacaq. Azərbaycanda daxili bazarın diri və soyudulmuş balıq seqmentində bir çox növlərin, məsələn, çəkikimilərin, nərəcinsli balıqların, hətta soyuq su balıqları olan qızılbalıqkimilərin, o cümlədən əlvan forelin yetişdirilməsi üzrə rəqabətə davamlı məhsul istehsal etmək mümkündür".

## "İXRAC İMKANLARI GENİŞLƏNƏCƏK"

Sədr həmçinin deyib ki, balıqçılıq sənayesinin subsidiyalaşması ixrac imkanlarını genişləndirəcək: "Bu gün dövlətin kənd təsərrüfatı sahəsinin müxtəlif istiqamətlərinə verdiyi dəstək sayəsində əsasən bağçılıq, fındıqçılıq, tərəvəzçilik sahəsində ciddi ixrac, istehsalat artımı formalaşır. Təəssüf ki, balıqçılıq sənayesi dövlətin dəstəyindən yararlana bilmirdi. Artıq sözügedən fərmanla bu sahə də dövlətdən dəstək ala biləcək. Nəticədə yaxın zamanda istehlakçılar öz süfrələrində sağlam, keyfiyyətli, ekoloji cəhətdən təmiz yerli istehsal olan balıq məhsullarını görə biləcəklər".



Azərbaycanda balıq məhsullarının satışı üzrə ixtisaslaşmış bazarların yaradılmasına gəlincə, mütəxəssis bu istiqamətdə Türkiyə təcrübəsindən yararlanmağı məqsədəuyğun sayır: "Biz bu məsələni ətraflı şəkildə yeni yaradılacaq Mərkəzin səlahiyyətli şəxsləri ilə müzakirə etməyi planlaşdırırıq. Burada çox önəmli Türkiyə təcrübəsi var, onlarda bu tip bazarlar "hali"lar adlanır. Belə satış mərkəzləri həm keyfiyyətə nəzarətə, həm uçotun təşkilinə, həm də subsidiya mexanizminin daha şəffaf şəkildə həyata keçirilməsinə imkan verir".



Zaur Salmanlı

### "BALIQARTIRMA ZAVODLARININ FƏALİYYƏTİ BƏRPA EDİLMƏLİDİR"

Balıqçılar İttifaqının sədri Əfqan Əliyevin qənaətincə, sözügedən fərman bu sahədə idxaldan asılılığımızı əhəmiyyətli dərəcədə azalda bilər: "İndiyədək balıqçılıq sahəsində qeyri-müəyyənlik hökm sürürdü. Nəticədə yerli istehsal mövcud tələbatın heç 10 faizini qarşılamırdı. Düzdür, son illər istehsal nisbətən artmışdı, amma bazarlar yenə də idxaldan asılı vəziyyətdə idi. Əslində Azərbaycan dünyada nadir ölkələrdəndir ki, burada balıqçılığı inkişaf etdirmək üçün fəsil gözləmək lazım deyil. Məsələn, Rusiyada balıqçılığın inkişafı üçün yaz fəslini gözləyirlər. Bizdə isə belə bir problem yoxdur. Sadəcə, bu sahəni düzgün və sistemli şəkildə inkişaf etdirmək üçün konkret mexanizm olmalıdır. Eyni zamanda, balıqartırma zavodlarının fəaliyyəti bərpa edilməlidir".



Əfqan Əliyev

## "BU SAHƏNİ BƏRPA ETMƏK ELƏ DƏ ASAN OLMAYACAQ"

İqtisadçı-ekspert Akif Nəsirli balıqçılıq sahəsinin gələcəyi ilə bağlı o qədər də nikbin deyil.

Onun fikrincə, ölkədə balıqçılıq sənayesini bərpa etmək heç də asan olmayacaq: "Bu gün Azərbaycanda təbii balıq tapmaq çətin məsələyə çevrilib. Bütün satış məntəqələrində ancaq vətəgədə süni şəkildə yetişdirilmiş balıqlar satılır. Bunun da bir çox səbəbləri var. Ən əsas səbəbsə ekoloji faktordur. Son 50 ildə Xəzər dənizinin, Kür və Araz çaylarının kəskin şəkildə çirklənməsi digər sahələrlə yanaşı, balıqçılığa da ciddi xələl gətirib".

Ekspert vurğulayıb ki, bu səbəblərdən balıqlar dənizin dərinliklərinə çəkilib: "Əvvəllər dənizdəki balıqlar kürü tökmək üçün Kürün deltasından üzü yuxarı üzürdülər. Amma bu gün belə hal yoxdur. Çay girişləri bloklanıb, suyu azalıb. Heç bir normativə əməl olunmadan çay suları əkin-biçinə, süni balıq göllərinə yönləndirildiyindən balıqların miqrasiyasında problemlər var. İkinci səbəb Kür və Araz çaylarında və eləcə də Xəzərdə suyun azalmasıdır. Bu ekoloji fəlakət səbəbindən dayaz, su axını zəif olan Kür və Arazda balıq demək olar ki, yoxa çıxıb. Üçüncüsü, qeyri-sənaye üsulu ilə ovlama balıqların azalmasına səbəb olub. Çox təəssüf ki, balığın nə zaman və necə ovlamaq lazım olduğunu çoxlarımız bilmirik. Ona görə də ümid vətəgə balıqlarına qalıb".



Akif Nəsirli

# ELEKTROMOBİLLƏRDƏ ŞÜALANMA PROBLEMİ



**Elektromobillərlə bağlı rəylər birmənalı deyil. Bəziləri onlardan istifadənin insan sağlamlığına mənfi təsir göstərdiyini iddia edir. Lakin bu iddialarla razılaşmayanlar da çoxdur.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Son zamanlar elektromobillərə maraq getdikcə artır. Hər il yeni satış rekordları qeydə alınır. Amma elektromobillərlə bağlı rəylər də birmənalı deyil. Belə fikirlər var ki, standartlara cavab verməyən elektromobillər sürücülərin sağlamlığı üçün problemlər yaradır. Xüsusilə də Çin istehsalı olan elektromobillərlə uzaq yol gedən sürücülərin ayaqlarında ağrıların yaranması ilə bağlı iddialar var. Bunun maşınların salonlarında şüalanmanın həcminin icazə verilən normadan çox olmasından qaynaqlandığı da iddia edilir. Həmin avtomobillərin yaşı artdıqca, akkumulyatorlarının da ətraf mühit üçün təhlükə yaradacağını söyləyirlər.

> **Akkumulyator köhnəldikcə, təhlükə dəfələrlə artır**

### "BUNUN SƏBƏBİ AKKUMULYATORLARDIR"

Nəqliyyat məsələləri üzrə ekspert Adil Nəbiyevin sözlərinə görə, o da elektromobildən şikayət edən şəxslərlə qarşılaşıb. Həmin şəxslər iddia ediblər ki, elektromobil istifadə etdikdə səhhətlərində bir sıra xoşagəlməz hallar yaranıb: "İnsanlar Çin avtomobilləri ucuzdur deyə onlara meyl edirlər. Qiyməti 50-60 min dollar olan elektromobil alan insanların əksəriyyəti deyir ki, uzaq yola çıxdıqda başağrıları, ürək bulanması olur. Meteohəssas insanlar bundan lap çox əziyyət çəkirlər. Qiyməti bir az ucuz olan avtomobillərdə bu əlamətlər daha böyükdür. Bunun səbəbi akkumulyatorlardır. Akkumulyator nə qədər böyükdürsə, yayılan radiasiya faizi də o qədər çoxdur. Bəzi avtomobillərdə maşının alt hissəsi akkumulyatordan ibarətdir, bu da ayaqlarımızın daha çox şüalanmasına səbəb olur. Bu maşınları uzun müddət sürmək ziyandır, çünki akkumulyator köhnəldikcə, təhlükə dəfələrlə artır. Ona görə istismar müddəti bitəndə, avtomobili utilizasiyaya vermək lazımdır".

### "İSTİFADƏDƏN ƏVVƏL DƏFƏLƏRLƏ YOXLANILIR"

Azərbaycan Avtomobil Dilerləri Assosiasiyasının icraçı direktoru Eyyub Əliyevin fikrincə, elektromobillər haqqında söylənilən fikirlərin doğru olması ehtimalı mümkün deyil: "Çünki elektromobillər insanların istifadəsinə verilməmişdən öncə istər alimlər, istər mühəndislər tərəfindən dəfələrlə yoxlanılır. İnsan səhhətinə, həmçinin təbiətə ziyan olub-olmadığı dəfələrlə araşdırılır və ondan sonra satışa çıxarılır. Təbii ki, bu avtomobillər yeni olduğu üçün onlar haqqında müxtəlif şayiələr yayılması başa düşüləndir".

### "BU STANDARTLAR MÜVAFİQ QURUMLAR TƏRƏFİNDƏN TƏSDİQLƏNİB"

E.Əliyevin sözlərinə görə, elektromobillərlə bağlı dünya standartları bizim ölkəmizdə də tətbiq edilir: "Azərbaycana avtomobil gətirilməsi üçün xüsusi standartlar mövcuddur. Bu standartlar müvafiq qurumlar tərəfindən təsdiqlənib. Onların da əsası təbii ki, dünya standartları əsasında formalaşır. Ölkəmizə yeni məhsullar gətirildikdə xüsusi olaraq onlarla bağlı da yeni standartlar qəbul olunur və tətbiq edilir".

### "AKKUMULYATORUN TƏHLÜKƏ YAYMASI YALANDIR"

Azərbaycan Standartlaşdırma İnstitutunun Ağır sənaye və maşınqayırma sahələrinin standartlaşdırılması şöbəsinin müdiri Sədrəddin Qasumov da söylənilən fikirlərin həqiqəti əks etdirmədiyini deyir: "Elə bir şey mövcud deyil. Elektromobil tipli avtomobillər konstruksiya baxımından digər avtomobillər kimidir. Yəni, akkumulyatorunun təhlükə yayması yalandır. Çünki eyni avadanlıqdan köhnə maşınlarda da var idi. Təhlükəli heç bir fərq mövcud deyil".

## "Elektromobillərdə faydalı iş əmsalı 95 faiz təşkil edir"

Elm və Təhsil Nazirliyinin Radiasiya problemləri İnstitutunun radio-biologiya şöbəsinin müdiri, biologiya elmləri doktoru, professor Elimxan Cəfərov düşünür ki, elektromobillər günün tələbidir: "Elektromobillərlə daxili yanma mühərrikli avtomobillərin böyük fərqləri mövcuddur. Daxili yanma mühərrikli avtomobillərin faydalı iş əmsalı maksimum 36 faizdir. Hətta məşhur markaların avtomobilləri belə 36 faizdən yüksək göstəriciyə malik deyil. Yanacaq yanarkən ayrılan enerjinin yalnız 35 faizi təkərin fırlanmasına və maşının hərəkətdə olmasına sərf olunur. Qalan 65 faiz isə ətraf mühitə atılır. Amma elektrik mühərrikli avtomobillərdə faydalı iş əmsalı 95 faiz təşkil edir".

## "Bu, sadəcə zəif elektromobil şüasıdır"

E.Cəfərov bildirdi ki, elektromobillərdən yayılan şüa radiasiya deyil və onların insan sağlamlığı, həmçinin yaşadığımız təbiət üçün heç bir mənfi tərəfi yoxdur: "Onların radiasiya yayması məsələsinə gəldikdə isə, ətrafımızdakı bir çox elektriklə işləyən avadanlıq da şüalanmaya səbəb olur. Elektromaqnit dalğaları yayırlar. Bu saat hər kəsdə olan smartfonların yaydığı radiasiya daha təhlükəlidir. Onların insan sağlamlığına təsiri daha güclüdür. Elektromobillərdəki şüalanma gündəlik istifadə etdiyimiz cihazlardan qat-qat azdır. Hətta bir ara şayiələr yayılmışdı ki, elektromobillərin akkumulyatoru partlayır, onlar alışıb yanırlar. Lakin bunlar da qeyri-real məlumatlar idi".

### "ONLARIN UTİLİZASİYA MƏSƏLƏSİ DƏ DÜŞÜNÜLÜR"

Şöbə müdiri gələcəkdə elektromobillərin utilizasiyası ilə bağlı mövcud olan narahatlıqlara da aydınlıq gətirdi: "Elektromobillərdəki akkumulyatorlardan daxili yanma mühərrikli maşınlarda da istifadə edilir. Hansı ki, həmin akkumulyatorlar qurğuşundan hazırlanır və sulfat turşusunun içərisinə yerləşdirilir. Sulfat turşusu da utilizasiya üçün tamamilə uyğundur. Amma onları hara gəldi atmaq düzgün deyil. Çünki qurğuşun təhlükəli metaldır. Onlar üçün xüsusi qəbiristanlıqlar olur ki, aktivlik tam azalana qədər onlar orada basdırılır. Əgər elektromobillərin istehsalı hər il artırsa, onların utilizasiya məsələsi də düşünülür. Burada narahat olmaq üçün əsas yoxdur. Hətta elektromobillərdə istifadə edilən akkumulyatorlar daha təhlükəsizdir. Ekoloji cəhətdən ən təmiz məhsullardan hazırlanır. Çünki texnologiya inkişaf edir. Gələcəkdə asfaltdan elektrik istehsal edə bilən akkumulyatorlar istehsal ediləcək. Təkər fırlandıqca, avtomobil elektrik doldura biləcək. Bu zaman artıq şarj məntəqələrinə, həmçinin saatlarla enerji yığmağa da ehtiyac qalmayacaq".



Eyyub Əliyev

Adil Nəbiyev

Elimxan Cəfərov

**Foto:** Sabir Məmmədov - Global Photostock

# ÖLÜMÜ DƏ QEYRİ-ADİ OLAN AKTRİSA



Sənət yoldaşları Akademik Milli Dram Teatrının aktrisası, Xalq artisti Zərnigar Ağakişiyevanı hörmətlə anırlar. Onun qeyri-adi xarakteri ilə gözəl rollar yaratdığını vurğulayırlar.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

“Zərnigar xanım Azərbaycan teatrında həmişə xatırlanan simadır. O, rəngarəng aktrisa idi. Oynadığı obrazlar indi də tamaşaçıların yaddaşından çıxmır. Əgər yaşasaydı, bu il 80 yaşını qeyd edəcəkdi”. Akademik Milli Dram Teatrının aktrisası, Xalq artisti Zərnigar Ağakişiyevanın (fevralın 8-də xatirə günüdür) sənət yoldaşları onu hörmətlə anırlar.

**“ONA QARŞI ƏDALƏTSİZ YANAŞMA OLDU”**

Xalq artisti Nurəddin Mehdixanlı xatırlayır: “Zərnigar xanım çox istedadlı idi. Onun gözəl səsi vardı. Teatrın səhnəsində, Azərbaycan Televiziyasında çəkilən tamaşalarda fərqli və maraqlı rollar oynayırdı. Onun gözəl vokal səsi vardı. Teatrda aktyor heyəti ilə bağlı müəyyən dəyişikliklər olanda Zərnigar xanım teatrdan getdi. O dövrdə ona qarşı ədalətsiz yanaşma oldu. Təəssüf ki, teatrımızın elə bir istedadlı aktrisası teatrdan necə küsüb getdisə, bir daha geri qayıtmadı”. N.Mehdixanlı deyir ki, Zərnigar xanım həmişə üzügülər, şən idi: “Onu heç kəs heç vaxt qəmli görməzdi. Bu, hamı üçün bir tapmaca idi. O, insan olaraq heç kəsin işinə qarışmazdı, xeyirxah bir xanım idi”.

**“ÇOX KOLORİTLİ, HEÇ KİMƏ BƏNZƏMƏYƏN AKTRİSA İDİ”**

“Biz yaxın dost olmuşuq. O, bizə tez-tez gedib-gəlirdi”, - deyə Xalq artisti Səidə Quliyeva xatırlayır: “Mən teatra işləməyə gələndə Zərnigar xanım aktrisa kimi çox xoşuma gəlirdi. Çox koloritli, heç kimə bənzəməyən aktrisa idi. Onun oyun tərzi, səhnədəki müxtəlif obrazları tamaşaçını heyran edirdi. Zərnigarın rolları bir-birinə bənzəmirdi. Belə bir aktrisa ilə tərəf-müqabil olmaq mənim kimi gənc aktrisa üçün böyük uğur idi”. S.Quliyeva deyir ki, mərhum aktrisa ilə tərəf-müqabil olduğu ilk tamaşa “Atayevlər ailəsi” olub: “Zərnigar xanım həmin tamaşada mənim ögey anamı oynayırdı. Bu tamaşada çox qüdrətli aktyorlar çəkilmişdi. Zərnigar xanım da onlardan biri idi”. S.Quliyeva Zərnigar xanımın sənətə bir qədər gec, 30 yaşlarında gəldiyini deyir: “O, bir müddət Moskvada çalışmışdı. Bakıya qayıdandan sonra aktrisa olmaq istəmişdi. Və nə yaxşı ki, o, aktrisa olmuşdu. O, Azərbaycan mədəniyyətinə yeniliklər gətirdi, rəngarəng obrazlar qalereyası bəxş etdi. Baxmayaraq ki, o, bu sənətə gec gəlmişdi, illərlə işləyən sənətkarları da ötüb keçdi. Onun gözəl vokal səsi vardı. Qaynanam Elmira Quliyeva onun vokal müəllimәsi olmuşdu. Zərnigar xanım oynadığı obrazlarla, səs tembri, gözəlliyi ilə səhnəyə yaraşırdı. O bir az dolu xanım idi, ancaq bu da ona yaraşırdı. Çox qəribədir ki, o, ömrünün sonuna qədər pəhriz saxladı. Mən həmişə qastrollarda olanda “sən həmişə pəhriz saxlayırsan, amma heç vaxt da arıqlamırsan” deyirdim. Amma “elə bil bir az arıqlamısan” deyəndə o qədər sevinirdi ki...”

## “MƏN ONUN QEYRİ-ADİLİYİNİ SEVİRDİM”

S.Quliyeva deyir ki, Zərnigar xanım təbiətdən, Tanrının yaratdığı hər şeydən zövq alırdı: “Onu tanıyanlar “Zərnigar bir az qeyri-adi idi” deyirdilər. Amma mən onun qeyri-adiliyini sevirdim. Onun qeyri-adiliyinin içində bir fəlsəfə, gözəllik, daxili zənginlik vardı. Çox insanlardan eşitmədiyin fikirləri çatdırmağı bacarırdı. Bəlkə də buna görə aktrisa olmuşdu. Zərnigar 70 illik yubileyini də qəribə keçirdi. Yubileyini “Avropa” hotelində qeyd etdi. “Görüm kimin yadındayam? Kim gələcək?”- deyə heç kəsi dəvət etmədi. Amma bilənlər öyrənib yığışdı. Onun özü ilə bağlı tədbirləri də fərqli idi. Hərdən deyirdim ki, sən yer adamı deyilsən, göy adamısan. Hərəkətləri ilə, rolları ilə, həyata baxışları ilə fərqlənirdi. Zərnigar geniş qəlbli, xeyirxah insan idi. Sonuncu qəpiyini də kiməsə verirdi. Onun ağır günləri çox olmuşdu. Ona görə də çalışırdı ki, əmək haqqından, Prezident təqaüdündən imkansızlara paylasın. Onun övladı yox idi, amma uşaqları çox sevirdi. Mən ona qəlbən bağlı idim. Gecələr mənə zəng vururdu. Bilirdim ki, ürəyi sıxılır, darıxır. Çox şeydən qorxurdu. Ən çox 20 Yanvarda qorxmuşdu. Hadisələr onun yaşadığı binanın qarşısında baş vermişdi. Sonra bir müddət o evdə yaşamadı. Dost-tanışının evində qalırdı”. S.Quliyeva deyir ki, mərhum aktrisanın xarakteri kimi ölümü də qeyri-adi olub: “Zərnigar həyatdan nakam getdi. O, tək yaşayırdı. Biz tez-tez onu axtarırdıq, zəng vururduq. Bəzən evdə olanda da telefonu qaldırmırdı. Adamlarla ünsiyyət qurmaq istəmirdi. “Heç kəslə danışmaq istəmirəm”, - deyə gizlətmirdi. Biz bununla barışmışdıq. Zərnigar 2-3 gün evdə cansız qaldı. Qohumları ona çox hörmətsizlik etdilər. Onun evi, bir az pulu vardı. Ölən kimi onun cəsədini buradan qaçırıb Qubada dəfn etdilər. İndi biz onun məzarını ziyarət edə bilmirik. Heç yas mərasimində də iştirak edə bilmədik. Buna görə onun yaxınlarını qınayıram. Məzarı burada olsaydı, sənət yoldaşları ziyarət edərdi. Onun ruhu nigarançılıq çəkir...”

**YETİM QALAN OBRAZLAR**

Xalq artisti, rejissor Mərahim Fərzəlibəyov danışır: “Zərnigar xanım mənim quruluş verdiyim bir neçə tamaşada yüksək peşəkarlıqla oynayıb. O, yüksək vokal səsə malik idi. Hətta “Qızıl Fond”da saxlanılan mahnıları da var”. M.Fərzəlibəyov deyir ki, hazırladığı “Təhminə və Zaur” tamaşasındakı Zivər xanım - Zaurun anası obrazından sonra kinorejissor Rasim Ocaqov da Zərnigar xanımı “Təhminə” filminə, eyniadlı obrazı oynamağa dəvət edib: “Rasim müəllim başa düşürdü ki, bu obrazı heç kim Zərnigar xanım kimi oynaya bilməz. Həqiqətən də film çox uğurlu alındı. Mən həmişə bu aktrisa ilə işləməyə çalışırdım. Çünki Zərnigar xanım anadan aktrisa doğulmuşdu. Tanrı ona gözəl səs, qadın gözəlliyi, aktrisalıq istedadı bəxş etmişdi. Yüzdən çox tamaşa hazırlayan bir rejissor kimi əminliklə deyirəm ki, böyük aktyor olmaq üçün anadan böyük aktyor doğulursan. Belə sənətkarlar Azərbaycan teatrında azdır, onlardan biri də Zərnigar xanım idi. Zərnigar xanımdan sonra can verə biləcəyi nə qədər obrazlar yetim qaldı...”



Nurəddin Mehdixanlı
Səidə Quliyeva
Mərahim Fərzəlibəyov

Foto: Əjdər İbrahimov
Global Photostock

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
8 FEVRAL ŞƏNBƏ 2025
www.kaspi.az

## SUAL DOĞURAN MƏQAMLAR

Yeni mövsüm çempionatın hansı formatda keçiriləcəyi, düşənlərin və qalxanların necə müəyyənləşəcəyi hələlik açıqlanmayıb. Bu isə spekulyasiyalara yol açır. İclasın yekun protokolunda əsasnamə və format məsələlərinin gələcəkdə müzakirə olunacağı açıqlanıb. Hələlik aydın deyil ki, Premyer Liqanın sonuncusu turnirlə vidalaşacaq, ya yox. I Liqadan üç, yoxsa iki komandanın Premyer Liqaya yüksələcəyi də məhz buna bağlıdır. İdman prinsiplərinin qorunmasının tərəfdarları elitada 10-cu olacaq kollektivin düşməsini arzulayırlar. Lakin aşağı liqa klublarının infrastruktur problemlərinin mövcudluğunu əsas gətirənlər sonuncunun qalması və iki klubun yüksəlməsini əks-arqument kimi təqdim edirlər.

Daha bir məqam formatın necə olacağıdır. 12 komandanın yarışdığı Avropa liqalarının əksəriyyətində “6-lıq” sistemi tətbiq olunur. Lakin bunun əsas mənfi tərəfi ikinci “altılıq”da qərarlaşan komandaların iddiasının olmaması səbəbindən onların mübarizəsinin mənasızlaşmasıdır. Digər variant mövsümün üç dövrədən ibarət olmasıdır. Burada isə bəzi komandaların eyni rəqiblə iki dəfə səfərdə oynaması narazılığa səbəb olur.

İstənilən halda, detallı müzakirələrdən sonra ən optimal qərar qəbul edilməli, yekun variant qısa zamanda təsdiqlənməlidir. Artıq indidən Premyer Liqa klubları da, I Liqa təmsilçiləri də mövsümün sonunda onları nəyin gözlədiyinə dair dəqiq fikirlərə sahib olmalı və planlarını bunun əsasında qurmalıdırlar.




# FUTBOLUMUZDA YENİ DÖVR

## Çempionatda legioner limiti ləğv edildi

AFFA İcraiyyə Komitəsinin son iclasında qəbul edilən qərarlar konkret yanaşmalara əsaslanır. Legioner limiti ləğv olunur, Premyer Liqada komanda sayı artırılır.

Başa çatmaqda olan həftədə AFFA İcraiyyə Komitəsinin (İK) çoxdan gözlənilən iclası keçirildi. Öncə yanvara planlaşdırılan, bir neçə dəfə ertələndikdən sonra, nəhayət, bu həftə baş tutan toplantıda ölkə futbolu adına çox ciddi qərarlar qəbul edildi. Bu, yeni rəhbərliyin dövründə konkret məqamlarla bağlı konkret yanaşmaların qeydə alındığı ilk iclas oldu. Əslində, bir müddətdir, kuluarlarda qəbul ediləcəyi ilə bağlı söz-söhbətlərin dolaşdığı qərarlar ölkə futbolu üçün fundamental əhəmiyyət daşıyır.

### KOMANDA SAYI ARTIRILIR

Toplantıda AFFA-nın İnkişaf Strategiyası təsdiqləndi ki, bu, daha öncədən ictimaiyyətə açıqlanmış və kifayət qədər müzakirə olunmuşdu. İK-nın iclası ilə bağlı press-relizdə də bu məqamla yalnız strategiyanın təsdiqlənməsi qeyd olundu. Lakin daha detallı vurğulanan digər məqamlar da, əslində, İnkişaf Strategiyasının elementləridir.

Məsələn, növbəti mövsüm Azərbaycan Premyer Liqasında komanda sayı artırılacaq. Hazırda 10 klubun iştirakı ilə keçirilən çempionatda 12 kollektiv mübarizə aparacaq. Futbolun coğrafiyasının genişlənməsi baxımından komanda sayının artırılması ümumilikdə müsbət məqamdır. I liqa iştirakçıları arasında Premyer Liqa iddiaçılarına da nəzər yetirdikdə yeni kollektivlərin bölgə təmsilçiləri olacağını söyləmək olar. Bu, elitanın coğrafiyasının genişlənəcəyi anlamına gəlir. Hazırda Premyer Liqaya yüksəlməyə əsas iddiaçılar olan “Qəbələ”, “Karvan”, “İmişli”, “Zaqatala” kimi klubların hər biri region komandalarıdır. Deməli, ən azı daha iki bölgə Premyer Liqada təmsil olunacaq.

İclasda qəbul edilən qərarlardan ən çox müzakirə olunanı legioner limitinin ləğvidir. Bunun tərəfdarları da, əleyhdarları da çoxdur. Əgər hazırda komandaların heyətində yeddi gəlmənin oynamasına icazə verilirsə, yeni mövsümdən klublar meydanda eyni anda 11 əcnəbi futbolçudan yararlana bilərlər. Oyunun sifariş vərəqəsində maksimum 17 belə futbolçu ola bilər. Legionerlər üçün rüsum da dəyişdirilib. İlk yeddi əcnəbi üçün beş min, növbəti beşi üçün 10 min, sonrakı üçünə 100 min, daha sonrakılara isə 200 min manat rüsum tətbiq ediləcək. Hazırda ölkəsinin milli komandasının üzvü olan legionerlər rüsumdan azaddırsa, növbəti mövsümdən belə bir imtiyaz olmayacaq.

İK-nın iclasında ən çox müzakirə edilən və fikir ayrılıqlarına səbəb olan məsələ məhz limit olub. Futbol ictimaiyyətində də bununla bağlı fikirlər haçalanır. Bir qrup hesab edir ki, limitin ləğvi yerli oyunçuların daha az oynamasına, dolayısı ilə bunun



milli komandaya mənfi təsir edəcəyinə səbəb olacaq. Digər qrup isə limitin yerli oyunçuları arxayınlaşdırdığını, bundan sonra onların daha çox çalışacağını və ölkə xaricinə üz tutacağını düşünür. Əlbəttə, hər iki tərəfin haqlı olduğu məqamlar var. Bütün dünyada əcnəbi oyunçularla bağlı məhdudiyyətlərin tətbiq edilib-edilməməsi ciddi müzakirə mövzularındandır və hələ ki, bununla bağlı konkret yanaşma mövcud deyil.

### YERLİ OYUNÇULAR ÜÇÜN BONUS

Legioner rüsumlarından əldə ediləcək vəsaitdən klubları yerli oyunçulardan yararlanmağa təşviq etmək üçün də istifadə ediləcək. Qərara görə, heyətində yerli futbolçular oynadan klublara xüsusi hesablama metodu ilə bonus ödəniləcək. Bonuslar legioner rüsumundan əldə ediləcək vəsaitdən veriləcək. Lakin hələlik bu məsələ də tam dəqiq açıqlanmayıb. Çünki hansı meyarların əsas götürüləcəyi, hesablama mexanizmi aydın deyil. Mütəxəssislər hesab edirlər ki, burada konkret yaş həddi olmalı, bonuslar daha çox gənc yerlilərin oynadılmasına yönəldilməlidir. Əks halda, təcrübəli veteranları oynadanlar da bonus tələb edə bilər. Yaxud bonus mexanizmi ölkə xaricində yetişib sonradan Azərbaycan vətəndaşı olanlara da şamil ediləcəkmi, yoxsa yalnız yerli klubların akademiyalarında yetişənlər üçün nəzərdə tutulacaq - bu məqam da aydın deyil.

İstənilən halda, son iclasda qəbul edilən qərarlar kifayət qədər ciddidir. Bu, ölkə futbolunda yeni dövrün başlanğıcı hesab olunmalıdır. Özündə risklər ehtiva edən dəyişikliklərin necə effekt verəcəyini isə, təbii ki, zaman göstərəcək.